RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 174 (9053) ÇƏRŞƏNBƏ, 17 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## İki qardaş ölkə uğurla hərəkət edir, bir-birini dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Türkmənistanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Qurbanməmmet Elyasovun etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan-İsveç ikitərəfli münasibətlərinin inkişafı üçün yaxşı imkanlar var



Avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsveç Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Tobias Lorentzsonun etimadnaməsini qəbul edib.

→ 2



# Dünya çörəklə sınağa çəkilir

## Azərbaycanla Argentina arasında siyasi əlaqələr yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Argentina Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri xanım Marianxeles Belluşinin etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan Almaniyanın regionda ən mühüm iqtisadi tərəfdaşıdır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 16-da Almaniya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Ralf Horlemannın etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan davamlı inkişaf yolundadır

İqtisadi qüdrəti getdikcə artan Azərbaycan qlobal böhranla mübarizə dövründə belə regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan heç bir sosial layihəni təxirə salmır. Bu da bir daha təsdiq edir ki, bölgələrin yüksəlişi davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir.

Ümumiyyətlə, regionların inkişafı naminə uğurla reallaşdırılan dövlət proqramları ölkədə qeyri-neft sektorunun davamlı yüksəlişinə, sosial infrastrukturun keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, iş yerlərinin açılmasına, nəticədə, əhalinin məşğulluğunun artırılmasına təkan verib. Regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətinin prioritetini təşkil edir.

### Bölgələrə müntəzəm səfərlər, təxirə salınmayan layihələr

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında əksini tapmış vacib istiqamət insan amilinə xidmət etməklə yeni sosial-infrastruktur obyektlərinin - təhsil, mədəniyyət, səhiyyə, rabitə müəssisələrinin tikintisi, yeni yolların çəkilişi və əsaslı bərpasını nəzərdə tutur.

→ 4

## Prezident İlham Əliyev: "... dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür"

Bu gün istəsək də, istəməsək də qlobal təsirlərin təzyiqi altında dünya iqtisadiyyatında, ərzaq təhlükəsizliyi zəncirində ciddi problemlər yaşanır və böhran xarakterli geriləmələr baş verir. Reallıqlar ondan ibarətdir ki, Azərbaycan da qlobal iqtisadiyyata qoşulan dövlətlərdən biri kimi bu ciddi təsirlərlə üzləşmiş və onları dəf etmək məcburiyyətindədir. Bizi uğura istiqamətləndirən nailiyyətlərimizin özülündə Prezident İlham Əliyevin hakimiyyətdə olduğu uzun illər ərzində reallaşdırdığı taleyüklü islahatlar və müasir dünya təcrübəsinin intellektual tətbiqi dayanır.

Eyni zamanda dövlət başçısının çevik aqrar siyasəti, şaxələndirmənin geniş tətbiqi imkan verir ki, qlobal çağırışlara zamanında cavab verək, digərlərinin iqtisadiyyatlarını çökdürən böhranları minimallaşdıraq, bizi gözləyən qaçılmaz itkilərdən mümkün qədər sığortalanaq.

→ 5

## Ölkə üzrə orta aylıq pensiya 12 faiz artmışdır

Dövlət Statistika Komitəsi ölkə üzrə sosial təminat haqqında son rəqəmləri açıqlayıb.

Açıqlamada bildirilib ki, cari il iyulun 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 159,3 min nəfər pensiyaçı qeydiyyatda olmuşdur ki, bu da ölkə əhalisinin 11,5 faizini təşkil edir. Onların 60,5 faizi yaşa, 26,6 faizi əlilliyə, 12,9 faizi ailə başçısını itirməyə görə pensiya alır. Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,9, cari ilin əvvəli ilə müqayisədə isə 10,9 faiz artaraq 368,0 manat təşkil etmiş və orta aylıq əməkhaqqının 44,5 faizinə bərabər olmuşdur.

Xatırladaq ki, "Əmək pensiyaları haqqında" qanunda edilmiş müvafiq dəyişikliyə əsasən, 2022-ci ilin 1 yanvar tarixindən əmək pensiyasının minimum məbləği 20 faiz artırılaraq 240 manat müəyyən olunmuşdur.

Ölkədə pensiyaçıların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2022-ci il yanvarın 1-dən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmış, qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla digər əmək pensiyaçılarına 2022-ci il üzrə 200 manat məbləğində maddi yardım, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına isə 2022-ci ildə aylıq əmək pensiyasının 10 faizi məbləğində aylıq maddi yardım təyin olunmuşdur.

→ 5

## Üzgüçülərimizdən ilk qızıl medal

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan üzgüçülükdə ilk qızıl medalını qazanıb.




Konyadan verilən xəbərə görə, üzgüçümüz Ramil Vəlizadə finişə hamıdan tez çatıb.

O, 200 metr məsafəyə batterflyay üsulu ilə üzmədə 01:58.26 saniyə nəticə göstərib. Qeyd edək ki, bu, Azərbaycanın yarışlarda qazandığı 22-ci qızıl medaldır.

Qadın üzgüçümüz Məryəm Şeyxəlizadəxangah isə 100 metr məsafədə batterflyay üsulu ilə üzmədə yarımfinal mərhələsini 01:01.28 saniyə nəticə ilə birinci pillədə tamamlayıb və finala yüksəlib. O, həm də islamiadaların rekordunu yeniləyib.



## Ermənistan yeni mərhələnin başladığını anlamalıdır

Prezident İlham Əliyev avqustun 12-də İsmayıllı rayonunun Basqal qəsəbəsində olarkən Azərbaycan Televiziyasına müsahibə də verdi. Dövlət başçısı müsahibəsində çox ciddi məsələlərə toxundu, həm beynəlxalq dairələrə, həm də Ermənistanın hərbi-siyasi rəhbərliyinə ciddi mesajlar ünvanladı.

Ölkə rəhbəri bir müddət öncə Azərbaycan Silahlı Qüvvələrinin keçirdiyi "Qisas" antiterror əməliyyatından danışdı. Sözügedən əməliyyat erməni terrorçularının məhv edilməsi və strateji yüksəkliklərin nəzarətə götürülməsi ilə nəticələnib. Əməliyyat qısamüddətli, amma çox təsirli cəza tədbiri idi. Azərbaycanın "Qisas" əməliyyatı ermənilərə növbəti dərs oldu. Separatçılara Laçın şəhərini boşaltmaq üçün vaxt verildi.

→ 6

# İki qardaş ölkə uğurla hərəkət edir, bir-birini dəstəkləyir



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Qurbanməmmet ELYASOV** dedi: Hörmətli cənab Prezident, Türkmənistanın Azərbaycan Respublikasında səfiri təyin olunmağım barədə etimadnaməni və əvvəlki səfirin geri çağırılması haqqında məktubu bu gün Sizə təqdim etməyi özümə böyük şərəf sayıram.

Səfiri salamlayan **Prezident İlham ƏLİYEV** dedi: "Xoş gəlmisiniz, sizi görməyimə şadam. Mənə indi dedilər ki, siz Azərbaycan dilini çox yaxşı bilirsiniz və bizim söhbətimiz də azərbaycanca olacaq. Bu, əlavə məmnunluq yaradan bir amildir. Bizim dillərimiz bir-birinə oxşayır, amma eyni zamanda fərqlər də var. Ona görə də sizin Azərbaycan dilini öyrənməyiniz bizə, əlbəttə ki, çox xoşdur. Bu, əlbəttə, imkan verəcək ki, Azərbaycanda daha geniş təmaslarınız olsun.

Bildiyiniz kimi, ölkələrimiz arasındakı əlaqələr çox yüksək səviyyədədir. Bu əlaqələr xalqlarımızın iradəsi əsasında qurulubdur. Son illərdə həm qarşılıqlı səfərlər, həm əldə edilmiş razılaşmalar Azərbaycan-Türkmənistan əlaqələrini daha yüksək pilləyə qaldırıbdır. Bildiyiniz kimi, mənim bu yaxınlarda Türkmənistana səfərim, səfər zamanı yeni seçilmiş Prezidentlə və Xalq Məsləhəti Sədri ilə görüşlərim həm qardaşlığımızın növbəti təzahürü, eyni zamanda gələcək əməkdaşlıq üçün hesablanmış görüşlər idi. Biz bütün sahələrdə iki qardaş ölkə kimi uğurla hərəkət edirik, bir-birimizi dəstəkləyirik, istər beynəlxalq müstəvidə, istər ikitərəfli, istər çoxtərəfli formatda. Son vaxtlar iqtisadiyyat, ticarət, energetika, nəqliyyat, humanitar və digər sahələrdə biz yeni nəticələr görürük. Bu, bizi çox məmnun edir. Çünki bir daha demək istəyirəm ki, bu yüksəksəviyyəli çoxşaxəli əməkdaşlıq tarixi köklərə əsaslanır.

Əminəm ki, bundan sonra da Azərbaycan və türkmən xalqları iki qardaş xalq kimi çiyin-çiyinə gedəcək və qarşıda duran bütün vəzifələri uğurla icra edəcəklər. Bizi bir-birimizdən ayıran Xəzər dənizidir. Ancaq Xəzər dənizi də hazırda ölkələri birləşdirən dənizdir. Xəzər dənizinin ekoloji tarazlığının, təbii resurslarının qorunması, əlbəttə ki, bütün Xəzəryanı ölkələr üçün əsas vəzifələrdən biridir. Azərbaycan və Türkmənistan öz tərəfindən bu məsələlərə çox böyük töhfə verir.

Bütün siyasi, iqtisadi, enerji, nəqliyyat məsələləri ilə yanaşı, xalqlarımızı ortaq tarix, ənənələr, dil, dinimiz, adət-ənənələrimiz birləşdirir. Bu, çox güclü amildir. Yəni, bu, xalqlarımızı bir-birinə sıx bağlayan amildir. Əlbəttə ki, insanlar arasındakı təmasların iki dövlət arasındakı münasibətlərdə xüsusi yeri var.

Əminəm ki, siz Azərbaycanda fəal səfir kimi çalışacaqsınız. İki Prezidentin qarşıya qoyduqları vəzifələrin icrası imkan verəcək ki, əməkdaşlığımız daha da çoxşaxəli və nəticəyə hesablanmış olsun.

İnanıram ki, əldə edilmiş razılaşmaların icrası yeni imkanlar açacaq. Çünki indi biz əməkdaşlığın çox önəmli mərhələsindəyik. Ancaq iki ölkənin bütün imkanları hələ ki tam realizə olunmayıb, yəni, ikitərəfli əməkdaşlıq formatında. Ona görə əldə edilmiş razılaşmaların icrası öz növbəsində yeni addımlara gətirib çıxaracaq.

Sizə uğurlar arzulayıram. Əminəm ki, burada özünüzü evdəki kimi hiss edəcəksiniz".

Səfir **Qurbanməmmet ELYASOV** dedi: "Çox sağ olun, hörmətli cənab Prezident. İlk öncə vaxt tapıb məni qəbul etdiyiniz üçün Sizə dərin minnətdarlığımı bildirirəm.

İcazə verin, Türkmənistanın hörmətli Prezidenti Sərdar Berdiməhəmmədovun, eyni zamanda Türkmənistanın Xalq Məsləhətinin Sədri Qurbanqulu Berdiməhəmmədovun Sizə göndərdiyi səmimi salamlarını və xoş arzularını çatdırım.

Hörmətli cənab Prezident, Sizin də bildiyiniz kimi, Türkmənistan ilə dostluq, qardaşlıq münasibətlərinin dərin tarixi köklərinin, dilin, dinin, atalarımızdan, əcdadlarımızdan bizə miras qalan mənəvi və mədəni dəyərlərin bağladığı Azərbaycan dövlətində səfir təyin olunmağım mənim üçün böyük şərəfdir. Bu gün Sizinlə görüşməkdən məmnunluq duyuram. Əcdadlarımızın dost, qardaş kimi yanbayan yaşamalarını nəzərə alaraq, bizim münasibətləri çoxəsrlik münasibətlər kimi qiymətləndirmək olar. Türkmənistan öz qonşuları ilə yaxşı münasibətləri xüsusi qiymətləndirir və qardaş Azərbaycanla münasibətlərə xüsusi diqqət yetirir. Məlum olduğu kimi, bu münasibətlər həm də strateji xarakter daşıyır. Qarşılıqlı səfərlər, ayrı-ayrı sahələr üzrə imzalanmış sənədlər, həm də həyata keçirilmiş bir çox layihələr əməkdaşlığımızın genişlənməsində mühüm rol oynayır. Siyasi, iqtisadi sahələrdə qarşılıqlı faydalı işlər görülüb. Siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə faydalı işlər icra edilir. Biz bu işlərlə fəxr edirik".

❖ ❖ ❖

Dövlətimizin başçısı Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun və Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun salamlarına və xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Sərdar Berdiməhəmmədova və Qurbanqulu Berdiməhəmmədova çatdırmağı xahiş etdi.

# Azərbaycanla Argentina arasında siyasi əlaqələr yüksək səviyyədədir



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Argentina Prezidenti Alberto Fernandesin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdıran səfir Marianxeles Belluşi etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Alberto Fernandesin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını Argentina Prezidentinə çatdırmağı xahiş etdi.

Ölkələrimiz arasında siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu bildirən dövlətimizin başçısı ticari və iqtisadi sahələrdə də əməkdaşlığın genişləndirilməsinin zəruriliyini qeyd etdi və bunun üçün yaxşı potensialın mövcud olduğunu dedi.

Bakıda olmaqdan məmnunluğunu ifadə edən səfir paytaxtımızın gözəlliyinin ona dərin təəssürat hissi bağışladığını vurğuladı və ölkəmizdə çox böyük qonaqpərvərliyin şahidi olduğunu bildirdi.

Səfir Marianxeles Belluşi iqtisadi-ticari əlaqələrin genişlənməsi və bu baxımdan əməkdaşlığın səhiyyə, texnologiyalar, kənd təsərrüfatı sahələrinin və digər yeni sahələrin müəyyənləşdirilməsinin vacibliyini qeyd etdi.

# Azərbaycan Almaniyanın regionda ən mühüm iqtisadi tərəfdaşıdır



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Ralf HORLEMANN** dedi: Salam, cənab Prezident, sabahınız xeyir.

**Prezident İlham ƏLİYEV:** Salaməleyküm, sabahınız xeyir.

**Səfir Ralf HORLEMANN:** Almaniyanın ölkənizdə növbəti səfiri olmaq mənim üçün böyük şərəfdir. Sizinlə və hökumətinizlə əlaqələrimizi daha da inkişaf etdirib genişləndirməyi səbirsizliklə gözləyirəm.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm.

**Səfir Ralf HORLEMANN:** Ölkənizdə böyük səmimiyyətlə qarşılandığıma görə Sizə çox minnətdaram. Bizim ölkələrimiz arasında çox geniş münasibətlər var və bizi qarşıda çoxlu iş və bir çox fürsət gözləyir.

**Prezident İlham ƏLİYEV:** Bəli, haqlısınız. Bizim çox geniş gündəliyimiz var və əməkdaşlığın yaxşı tarixi var. Bildiyiniz kimi, alman şirkətləri Azərbaycanda çox geniş təmsil olunub və əminəm ki, onların fəaliyyəti daha da geniş olacaq. Bizim yüksəksəviyyəli səfərlərimiz və çox yaxşı siyasi əlaqələrimiz var. Əlbəttə, biz yeni fürsətlərin nədən ibarət olduğunu görməliyik. Çünki Almaniya ilə Azərbaycan arasında ikitərəfli əlaqələr region üçün və həmçinin ölkələrimiz üçün çox mühümdür.

Azərbaycan-Avropa İttifaqı əlaqələrinə toxunan **Prezident İlham ƏLİYEV** bu əlaqələrin inkişafında Almaniyanın xüsusi rolunu qeyd edərək dedi: Biz Avropa İttifaqı-Azərbaycan ikitərəfli gündəliyinə verdiyiniz bütün dəstəyə görə minnətdarıq. Bu gündəlik getdikcə genişlənir və bir çox sahələri əhatə edir. Sizin xanım Ursula Fon der Lyayenin çox uğurlu səfərindən və bizim konstruktiv danışıqlarımızdan xəbəriniz var.

Prezident İlham Əliyev Avropa İttifaqı ilə əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən energetika, nəqliyyat və nəqliyyat dəhlizləri, ticarət, investisiya sahələrində geniş perspektivlərə malik olduğunu vurğuladı. Azərbaycan ilə Avropa Komissiyası arasında enerji dialoquna start verildiyini qeyd edən dövlətimizin başçısı bu dialoqun təkcə qaz deyil, neft, hidrogen, elektrik enerjisi sahələrini də əhatə etdiyini bildirərək dedi: "Azərbaycan enerji bazarında yalnız ənənəvi olan neft və qaz ilə deyil, həmçinin gələcəkdə elektrik enerjisi, neft, hidrogen və neft-kimya məhsullarının idxalı ilə çox önəmli oyunçuya çevrilməkdədir. Biz mühüm nəqliyyat infrastrukturunu vaxtında tamamladıq".

Dövlətimizin başçısı səfirin əməkdaşlığımızın genişləndirilməsi işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi.

**Səfir Ralf HORLEMANN:** Tam səmimiyyətlə deyə bilərəm ki, mən bunu səbirsizliklə gözləyirəm. Çünki bu, bizim daha da inkişaf etdirə biləcəyimiz müsbət gündəlikdir. Siz doğru qeyd etdiniz ki, Almaniya və Azərbaycan geniş və çoxtərəfli münasibətə, konstruktiv siyasi dialoqa, güclü iqtisadi münasibətlərə malikdir. Azərbaycan Almaniyanın regionda ən mühüm iqtisadi tərəfdaşıdır. Biz enerji və bərpaolunan enerji sahələrində böyük potensial görürük.

Söhbət zamanı Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə böyükmiqyaslı mina problemi ilə üzləşməsi, Birinci Qarabağ müharibəsindən etibarən 4 min azərbaycanlının itkin düşmüş şəxs hesab edilməsi, həmçinin Azərbaycanın təşəbbüskarı olduğu və Cənubi Qafqazda davamlı sülhün və sabitliyin təmin olunmasına xidmət edən sülh gündəliyi məsələləri də müzakirə olundu.

Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda aparılan yenidənqurma və bərpa işləri barədə də fikir mübadiləsi aparıldı.

# Azərbaycan-İsveç ikitərəfli münasibətlərinin inkişafı üçün yaxşı imkanlar var



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, etimadnaməsini Prezident İlham Əliyevə təqdim edən səfir **Tobias LORENTZSON** dedi: "Cənab Prezident, İsveç Kralı tərəfindən imzalanan, mənim Azərbaycan Respublikasında fövqəladə və səlahiyyətli səfir təyin edilməyim ilə bağlı etimadnaməni və sələfimin geri çağırılması haqqında məktubu Sizə təqdim etməkdən şərəf duyuram. Cənab Prezident, icazə verin, Əlahəzrət Kralın dostluq və dərin ehtirama dair zəmanətini Sizə yenidən çatdırım".

**Prezident İlham ƏLİYEV** dedi: "Xoş gəlmisiniz, cənab səfir və xanım. Sizi görməyimə çox şadam. Sizdən xahiş edirəm, mənim də salamlarımı Kral həzrətlərinə çatdırasınız. Sizə Azərbaycandakı fəaliyyətinizdə uğurlar arzu edirəm. Ümid edirəm ki, iş qrafikiniz sıx olacaq, ölkələrimiz arasında münasibətlər uğurla inkişaf edəcək və bir çox yeni sahələri əhatə edəcək. Biz baxmalıyıq ki, hansı sahədə maksimum nəticə əldə etmək olar. Hesab edirəm ki, biz diqqətimizi əməkdaşlığımızın praktiki məsələlərinə yönəltməliyik - qarşılıqlı ticarətin səviyyəsini necə artıraq, sərmayə qoyuluşu və müxtəlif layihələrin icrası".

Dövlətimizin başçısı daha çox İsveç şirkətinin Azərbaycanda fəaliyyət göstərəcəyinə və ölkələrimiz arasında ticarət dövriyyəsinin artacağına ümidvar olduğunu bildirdi. Avropa İttifaqı-Azərbaycan əlaqələrinə toxunan Prezident İlham Əliyev bu əlaqələrin uğurla inkişaf etdiyini dedi, əməkdaşlığın son zamanlar yeni mərhələyə qalxaraq təkcə energetika sahəsini deyil, eləcə də nəqliyyat dəhlizləri, ticarət, investisiya və digər sahələri də əhatə etdiyini məmnunluqla bildirdi və bunun da öz növbəsində Azərbaycan-İsveç ikitərəfli münasibətlərinin inkişafı üçün yaxşı zəmin yaradacağını vurğuladı.

Azərbaycanda ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən səfir **Tobias LORENTZSON** dedi: Mən ikitərəfli münasibətlərimizin gücləndirilməsinə töhfə vermək arzusundayam. Sizin də qeyd etdiyiniz kimi, buraya ticarət və sərmayə qoyuluşu daxildir və mən ümid edirəm ki, ölkələrimiz arasında daha sıx biznes təmaslarını təşviq edə biləcəyəm. Həmçinin buraya dayanıqlı biznes həlləri də daxildir. Eyni zamanda ümid edirəm ki, insanlar arasında ünsiyyətin və ölkələrimiz arasında təmasların artırılmasına nail ola biləcəyəm. Bu, həm də Avropa İttifaqı-Azərbaycan əlaqələrinin də vacib aspektlərindəndir.

Söhbət zamanı ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunuldu.

# "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı" təsdiqlənib

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov avqustun 16-da "İşğaldan azad edilmiş ərazilərin Ümumi planı"nın təsdiq edilməsi haqqında Qərar imzalayıb.

# "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilib

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov avqustun 16-da bununla bağlı Qərarı imzalayıb.



# Bakıda Azərbaycan ilə Qırğızıstan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclası keçirilib

Avqustun 16-da Bakı şəhərində Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş nazirinin müavini, Komissiyanın Azərbaycan tərəfdən həmsədri Əli Əhmədovun və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini, Komissiyanın Qırğızıstan tərəfdən həmsədri Bakıt Torobayevin sədrlik etdikləri iclasda hər iki ölkənin müvafiq dövlət qurumlarının səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasın məhdud tərkibdə keçirilən hissəsində gündəlikdə duran, həmçinin iki ölkə arasında praktiki əməkdaşlığın müxtəlif aspektləri ilə bağlı konkret məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Tədbirin əsas hissəsini giriş sözü ilə açan Baş nazirin müavini Ə.Əhmədov Azərbaycan-Qırğızıstan dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluğunu ifadə etdi.

İkitərəfli əlaqələrin inkişafında ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin və bu səfərlər zamanı əldə edilən razılaşmaların və imzalanan sənədlərin müstəsna rolunu qeyd edən Ə.Əhmədov Qırğız Respublikasının Prezidenti Sadır Japarovun aprel ayında Azərbaycana rəsmi səfəri zamanı dövlət başçıları tərəfindən imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannamənin dövlətlərarası münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırdığını bildirdi.

İki ölkə arasında fəal siyasi dialoqun aparıldığı, Azərbaycanın və Qırğızıstanın beynəlxalq təşkilatlar çərçivəsində də uğurlu əməkdaşlıq həyata keçirdiyi və bir-birini dəstəklədiyi vurğulandı.

Azərbaycan-Qırğızıstan xarici ticarət dövriyyəsinin hazırkı həcminin, mövcud iqtisadi əlaqələrin ölkələrin real imkanlarına cavab vermədiyi diqqətə çatdırıldı. Bu baxımdan işgüzar əlaqələrin qurulması və inkişafı, ikitərəfli ticari-iqtisadi əməkdaşlığın konkret istiqamətlərinin müəyyən edilməsi məqsədilə birgə işgüzar tədbirlərin təşkilinin, sahibkarlıq fəaliyyəti üçün qarşılıqlı əlverişli şərait yaradılmasının, müştərək iqtisadi və investisiya layihələrinin təşviqinin vacibliyi qeyd edildi.

Ə.Əhmədov eyni zamanda Azərbaycan-Qırğızıstan əlaqələrinin digər istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, nəqliyyat-tranzit, energetika, sənaye, mədəni-humanitar sahələrdə inkişaf etdirilməsi ilə bağlı fikirlərini bölüşdü.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə danışan Baş nazirin müavini 30 il işğal altında qalan və 44 günlük Vətən müharibəsi nəticəsində azad olunun əzəli Azərbaycan torpaqlarında hərbi cinayətlərin törədildiyini, Azərbaycan xalqının mədəni-mənəvi irsinin məhv edildiyini diqqətə çatdırdı.

Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə yaranan yeni geosiyasi və geoiqtisadi reallıqlar barədə söhbət açan Ə.Əhmədov regionda nəqliyyat-kommunikasiya sisteminin bərpasının böyük perspektivlər vəd etdiyini və bütün bölgə ölkələri üçün faydalı olacağını vurğuladı.

Azərbaycanın maksimum konstruktivlik və xoş məram nümayiş etdirərək Ermənistan ilə münasibətləri normallaşdırmağa, sülh sazişi imzalamağa və sərhədlərin delimitasiyasına hazır olduğu bildirildi.

Təəssüflə qeyd olundu ki, Ermənistanın öz öhdəliklərinə əməl etməməsi regionda gərginliyin əsas səbəbidir. Ermənistan ordusunun və qanunsuz erməni hərbi birləşmələrinin ünsürləri hələ də Azərbaycan ərazisindən tam çıxarılmayıb ki, bu, rəsmi İrəvan tərəfindən 2020-ci il 10 noyabr Bəyanatının müddəalarının pozulması deməkdir.

Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayev Azərbaycan ilə Qırğızıstan arasında ali səviyyədə siyasi dialoqun inkişaf etdiyini, ticari-iqtisadi sahədə əməli əməkdaşlıq üçün geniş imkanların mövcud olduğunu bildirdi.

B.Torobayev Azərbaycanın biznes dairələrini Qırğızıstanda investisiya imkanlarını fəal öyrənməyə çağırdı, bunun iki ölkə arasında işgüzar əməkdaşlığın fəallaşmasına kömək edəcəyinə əminliyini ifadə etdi.

İclasda həmçinin hər iki ölkənin nümayəndə heyəti üzvlərinin məruzələri dinlənildi, gündəlikdə duran məsələlər ətrafında geniş müzakirələr aparıldı.

Sonda Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Qırğız Respublikası Nazirlər Kabineti sədrinin müavini Bakıt Torobayev Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 4-cü iclasının Protokolunu imzaladılar.

# Bakıda "Dəniz kuboku" müsabiqəsinin təntənəli açılış mərasimi olub

Avqustun 15-də Moskvanın Patriot Parkında 37 ölkəni, o cümlədən ölkəmizi təmsil edən 275 komandanın qatıldığı VIII Beynəlxalq Ordu Oyunlarına start verildikdən sonra Bakı şəhərində həmin gün "Dəniz kuboku" müsabiqəsinin açılışına həsr olunmuş təntənəli mərasim olub.





AZƏRTAC xəbər verir ki, Müdafiə Nazirliyinin rəsmiləri, Milli Məclisin deputatları, beynəlxalq müsabiqədə iştirak edən komandaların və ictimaiyyətin nümayəndələri əvvəlcə Hərbi Dəniz Qüvvələrinin qərargahı qarşısında ucaldılan Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək qarşısına qızılgüllər düzüb, xatirəsini ehtiramla yad ediblər.

Xəzər dənizinin sahilində keçirilən təntənəli açılış mərasimi hərbi orkestrin ifa etdiyi "Azərbaycan fanfarası" ilə başlanıb.

Tədbirin ssenari müəllifi və rejissoru Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani və aparıcılar - ikinci dərəcəli kapitan Mixail Sklyamin və Rəna Qurbanova mərasim iştirakçılarını salamlayaraq Xəzər dənizinin sahilində yenidən görüşdüklərindən məmnun olduqlarını bildiriblər.

Qeyd edilib ki, Xəzər dənizi xoşbəxtlik, səadət, gözəllik və həyat rəmzidir. Xəzər dənizi sahilində yaşayan bütün xalqlar üçün ümumi bir dəstərxandır. Dostluq, səmimiyyət, qarşılıqlı anlaşma, etimad və əməkdaşlıq dəstərxanı.

Aparıcıların söylədikləri "Qoy Xəzərimiz həmişə sülh, əmin-amanlıq içində sakit, rahat nəfəs alsın! Gəmilərimiz sahilləri xoş müjdələrlə sevindirsin, xalqlarımıza əmin-amanlıq, firavan günlər bəxş etsin! Xəzər məhəbbətimiz, sevgimiz heç vaxt tükənməsin!" fikirləri tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

Beynəlxalq müsabiqənin hakimlər kollegiyasının üzvləri, eləcə də Rusiya Federasiyası, İran İslam Respublikası, Qazaxıstan Respublikasının və Azərbaycan Respublikasının dövlət bayraqları altında həmin ölkələri təmsil edən komandalar təntənəli mərasimə dəvət ediliblər.

Ənənəyə uyğun olaraq müsabiqəyə evsahibliyi edən ölkənin - Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub və Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Xalid İbrahimov bayrağımızı qaldırıb.

Fəxri qarovul "Beynəlxalq Ordu Oyunları-2022" və "Dəniz kuboku" müsabiqəsinin bayraqlarını təntənəli mərasimə gətirib.

Beynəlxalq Ordu Oyunlarının himninin sədaları altında bayraqlar qaldırıldıqdan sonra Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini - Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilov nazirliyin rəhbərliyi adından müsabiqə iştirakçılarını və qonaqları salamlayaraq deyib: "Azərbaycan Beynəlxalq Ordu Oyunları başladığı 2015-ci ildən heç də dünya olimpiadalarından seçilməyən bu yarışlarda fəal iştirak edərək müxtəlif növlər üzrə müsabiqələrdə həmişə fərqlənib.

Beynəlxalq Ordu Oyunlarının tərkib hissəsi olan "Dəniz kuboku" artıq beşinci ildir ki, bizim gündən-günə gözəlləşən paytaxt Bakımızda təşkil olunur. Hər dəfə də çalışırıq ki, yarış iştirakçıları Odlar Yurdu Azərbaycandan xoş təəssüratlarla ayrılsınlar. Əminəm ki, bu il də qonaqlarımız respublikamızdan xoş təəssüratlarla öz doğma Vətənlərinə dönəcəklər".

General-mayor E.Xəlilov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Xəzəryanı ölkələr arasında mövcud olan dostluq, əməkdaşlıq münasibətləri Xəzərdə sülhün, təhlükəsizliyin qarantıdır" fikirlərini mərasim iştirakçılarına xatırladaraq diqqətə çatdırıb ki, Xəzəryanı dörd dövlətin Hərbi Dəniz Qüvvələri nümayəndələrinin bu gün Bakıda bir yerdə olması bir daha təsdiq edir ki, həqiqətən Xəzəryanı ölkələrin xalqları və orduları bu şərəfli missiyanı uğurla davam etdirirlər".

Müdafiə Nazirliyinin rəsmisi müsabiqənin "Artilleriya atışlarının yerinə yetirilməsi", "Gəminin dayanıqlığı uğrunda mübarizə və xilasetmə hazırlığı", "Dəniz hazırlığı" üzrə mərhələlərində 6 epizod üzrə keçiriləcək yarışlarda iştirakçılara uğurlar arzulayıb.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov çıxış edərək vurğulayıb ki, Azərbaycan Respublikası artıq dünyada həm də idman dövləti kimi tanınır. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" kimi möhtəşəm yarışların, dünya hərbçilərinin güləş, boks, futbol üzrə çempionatlarının bizim ölkəmizdə keçirilməsi bunu bir daha təsdiqləyir və bu ənənə bu gün də uğurla davam etdirilir. Bütün bunlar Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında respublikamızın dünyada getdikcə artan nüfuzunun, siyasi, iqtisadi, mədəni, idman, eləcə də ordu quruculuğu sahəsində qazandığı uğurların nəticəsidir.

"Dəniz kuboku-2022" Beynəlxalq müsabiqəsinə xalqımızın və ordumuzun böyük qələbə əhvali-ruhiyyəsi ilə yaşadığı bir vaxtda start verilir. Bu, hər bir Azərbaycan əsgərini sevindirir.

Beynəlxalq Ordu Oyunlarını ölkələrimizin hərbi qulluqçuları arasında qarşılıqlı etimad mühitinin inkişafı, hərbi əməkdaşlığın möhkəmlənməsi, dostluq və rəqabət gücünün artırılması, döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi, şəxsi heyətin qabaqcıl təcrübələrdən bəhrələnməsi, onlarda yüksək iradi keyfiyyətlərin aşılanması məqsədinə xidmət etdiyini vurğulayan kontr-admiral S.Bəkirov əmin olduğunu bildirib ki, bu yarışlar iştirakçı dövlətlərin hərbi qulluqçularında həmrəylik hissi oyatmaqla bərabər, həm də bütün iştirakçıların yaddaşında xoş xatirə olaraq qalacaqdır. Onlar ölkəmizi daha yaxşı tanımaq, tarixi yerləri, abidələri ziyarət etmək, xalqımızın milli adət-ənənələri, mədəniyyəti ilə yaxından tanış olmaq imkanı qazanacaq və günəşli Azərbaycanımızdan xoş təəssüratlarla, bir də bu yerlərə qayıtmaq arzusu ilə ayrılacaqlar.

Müsabiqə iştirakçılarını bir daha səmimi-qəlbdən salamlayan, yarışlarda öz ölkəsini təmsil etmək şərəfinə nail olmuş bütün komanda üzvlərinə gərgin yarışlar zamanı yüksək nəticələr və uğurlar qazanmağı arzulayan Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı alqışlar altında Beynəlxalq Ordu Oyunları çərçivəsində paytaxtımızda keçirilən "Dəniz kuboku-2022" beynəlxalq müsabiqəsini açıq elan edib.

İştirakçı dövlətlərin nümayəndələri adından çıxış edən Rusiya Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi kontr-admiral Tryapiçnikov Vladimir Aleksandroviç təntənəli mərasim iştirakçılarını salamlayaraq onlara yarışlarda müvəffəqiyyətlər arzulayıb və 5 ildir ki, Azərbaycanın evsahibliyi etdiyi "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə və Hərbi Dəniz Qüvvələrinin komandanlığına minnətdarlığını bildirib.

2017, 2018, 2019, 2020-ci illərdə Azərbaycanda keçirilən "Dəniz kuboku" müsabiqələrinin xronikasını əks etdirən videosüjetlər nümayiş etdirilib.

Teatrlaşdırılmış konsert proqramında Xalq artisti Gülyaz Məmmədova, Əməkdar artistlər Cahangir Qurbanov, Nigar Şabanova, Fərid Əliyev, tanınmış ifaçılardan Vüqar Qarabağlı, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi və "Səma", "Asiman" rəqs qruplarının təqdim etdiyi komandaların mənsub olduqları xalqların milli musiqi, mahnı və rəqsləri, videoçarxlar açılış mərasimi iştirakçılarının böyük marağına səbəb olub.

## MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib

Avqustun 16-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

MSK Katibliyinin Media və kommunikasiya şöbəsindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə komissiyanın 2022-ci il avqustun 4-də keçirilmiş iclasının protokolu təsdiqlənib.

Sonra Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturunun və ştat vahidlərinin yenidən təsdiq olunması məsələsi müzakirə edilib. Bildirilib ki, Katibliyin fəaliyyətinin səmərəliliyinin daha da artırılması məqsədilə komissiyanın 2022-ci il 4 avqust tarixli Qərarı ilə "Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"yə dəyişikliklər edildiyi üçün mövcud strukturun təkmilləşdirilərək yenidən təsdiq edilməsinə zərurət yaranıb. Qeyd olunanları əsas götürən Mərkəzi Seçki Komissiyası Katibliyin strukturunun və ştat vahidlərinin yenidən təsdiq edilməsinə qərar verib.

Media tərəfindən geniş işıqlandırılan iclasda həmçinin bir sıra seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər edilib və cari məsələlərə baxılıb.

### Qərar № 5/18

### Mərkəzi Seçki Komissiyasının 2022-ci il 4 avqust tarixli iclas protokolunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2022-ci il 4 avqust tarixli iclasının protokolu təsdiq edilsin.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***16.08.2022-ci il***

### Qərar № 5/19

### Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturunun və ştat vahidlərinin yenidən təsdiq edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası (bundan sonra - Mərkəzi Seçki Komissiyası) Katibliyinin strukturunun təkmilləşdirilməsi və fəaliyyətinin səmərəliliyinin daha da artırılması məqsədilə Mərkəzi Seçki Komissiyasının 2022-ci il 4 avqust tarixli 4/17 saylı Qərarı ilə "Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Katibliyi haqqında Əsasnamə"yə dəyişikliklər edilib. Bununla əlaqədar Mərkəzi Seçki Komissiyası Katibliyinin mövcud strukturunun təkmilləşdirilərək yenidən təsdiq edilməsi zərurəti yaranmışdır.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 28.5-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturu və ştat vahidləri yenidən təsdiq edilsin *(cədvəl əlavə edilir)*.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***16.08.2022-ci il***

# Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturu

| Struktur bölməsinin adı |
|---|
| Katibliyin müdiri |
| Katibliyin rəhbərinin müavini |
| Katibliyin müdirinin köməkçisi |
| **Katibliyin Təşkilat şöbəsi** |
| **Katibliyin Hüquq şöbəsi** |
| **Katibliyin Beynəlxalq əlaqələr şöbəsi** |
| *Treninq sektoru* |
| **Katibliyin İnformasiya mərkəzi** *(şöbə statusunda)* |
| *İnformasiya sistemlərinin avtomatlaşdırılması sektoru* |
| *İnformasiya şəbəkəsinə nəzarət və koordinasiya sektoru* |
| *Texniki və sistem təminatı sektoru* |
| **Katibliyin Ümumi şöbəsi** |
| *Kargüzarlıq sektoru* |
| *İnsan resursları sektoru* |
| **Katibliyin Media və kommunikasiya şöbəsi** |
| **Katibliyin Siyasi partiya və ictimai təsisatlarla iş şöbəsi** |
| *Seçkilərlə (referendumla) bağlı siyasi partiyalarla iş sektoru* |
| *Siyasi partiyaların maliyyə hesabatları üzrə iş sektoru* |
| **Katibliyin Redaksiya və nəşr şöbəsi** |
| **Katibliyin Maliyyə şöbəsi** |
| **Katibliyin Təsərrüfat şöbəsi** |

| | | |
|---|---|---|
| Ştat cədvəlindəki ştat vahidlərinin sayı | - | 129 |
| Katibliyin rəhbərliyi | - | 3 |
| Şöbə müdiri | - | 10 |
| Sektor müdiri | - | 8 |
| Baş məsləhətçi | - | 31 |
| Böyük məsləhətçi | - | 18 |
| Aparıcı məsləhətçi | - | 4 |
| Məsləhətçi | - | 17 |
| Baş mütəxəssis | - | 27 |
| (o cümlədən sürücü - 13) | | |
| Böyük mütəxəssis | - | 2 |
| Xadimə | - | 9 |

### Qərar № 5/20

### Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 22.4.4-cü, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. İlham İmran oğlu Qəmbərov 13 saylı Xəzər - Pirallahı seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsin.

2. Rühəngiz Zaman qızı Əlimərdanova 13 saylı Xəzər - Pirallahı, Kamran Kamal oğlu Rəsulov 113 saylı Şəki şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

**Sədr** **Məzahir Pənahov**
**Katib** **Arifə Muxtarova**
**Katib** **Mikayıl Rəhimov**

***16.08.2022-ci il***



# Azərbaycan davamlı inkişaf yolundadır

## Regionların yüksəlişi İlham Əliyevin iqtisadi və sosial strategiyasının mühüm tərkib hissəsidir

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev müntəzəm olaraq bu layihələrin icrası ilə yerində tanış olur. Yəni tez-tez regionlara səfər edərək həm görülən işlərlə maraqlanır, həm də sakinlərlə səmimi görüşlər keçirərək onların problemlərini öyrənir. Bəzən elə olur ki, vətəndaşın problemi yerindəcə həll edilir və ya dövlət başçısı tərəfindən məsələnin həlli ilə bağlı aidiyyəti qurumlara tapşırıq verilir.

Həmçinin Prezident müxtəlif sosial-iaşə obyektlərinin, zavod-fabriklərin açılışında iştirak edir, müəssisənin kollektivi qarşısında geniş nitq söyləyir. Bütün çıxışlarında xalqa dövlətin gördüyü işlərlə bağlı hesabat verən Prezident həm də əhalini narahat edən məsələlərə aydınlıq gətirir.

Dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın İsmayıllı və Ağsu rayonlarına səfərləri zamanı yeni obyektlərin açılışı və Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində əhalini maraqlandıran məsələlərə aydınlıq gətirməsi də deyilənlərin əyani təsdiqidir.

Səfər çərçivəsində Qobustan rayonunda "Diri Baba" türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri, "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri, "Ağsu Aqropark" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə tanışlıq, İsmayıllı rayonunda "Basqal Resort & Spa" hotelinin, Ağsu şəhərindəki Bayraq meydanında Gənc Sənətkarlar Mərkəzinin və Dövlət Rəmzləri Muzeyinin açılışı bir daha dövlət başçısının bölgələrin yüksəlişinə, yeni iş yerlərinin açılmasına, məşğulluğun artırılmasına xüsusi diqqət yetirdiyinin təzahürüdür.

### Ölkədə 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb

Son illərdə milli iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə inkişafı sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb.

İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-sına texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib. Həmçinin aqroparklar üçün infrastruktur təminatı dövlət vəsaiti hesabına həyata keçirilir. Aqroparklar məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayır. Hazırda aqroparklarda ümumilikdə 4491 işçi daimi, 6303 işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4672 iş yerinin açılması nəzərdə tutulur.

Artıq ölkədə 44 aqropark fəaliyyətə başlayıb, digərlərində isə layihələndirmə işləri aparılır. 2018-ci ildən heyvandarlıq və əkinçilik sahəsi üzrə fəaliyyətə başlayan "Ağsu Aqropark"ın ümumi ərazisi 1843 hektar olmaqla, layihə dəyəri 18 milyon manatdır. Aqroparkın tikintialtı sahəsi 10 hektar təşkil edir. Yerli mütəxəssislərə önəm verən Qapalı Səhmdar Cəmiyyəti əhalinin məşğulluğunun təmin edilməsini mühüm bir vəzifə kimi öz üzərinə götürüb. Hazırda burada 200-ə yaxın daimi işçi çalışır, mövsümdən asılı olaraq 240-250 nəfər işlə təmin edilir.

### Yol-nəqliyyat infrastrukturunun yenidən qurulması

Regionların inkişafı dövlət proqramlarına uyğun olaraq son illərdə yol infrastrukturunun inkişafı istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın nəqliyyat-yol infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra edilir.

Ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayan yol infrastrukturunun önəmini nəzərə alan İlham Əliyev bu sahəni daim diqqət mərkəzində saxlayır. Son illər respublikamızın bütün şəhər, rayon və kəndlərində yol tikintisinə milyardlarla investisiyalar qoyulub.

Həm işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, həm də ölkənin digər bölgələrində ən müasir yollar salınır. Bütün illərdə olduğu kimi, 2022-ci ildə dövlət proqramına uyğun olaraq bütün yol-nəqliyyat infrastrukturları uğurla icra olunur. Bu il Prezidentin iştirakı ilə bir çox rayon və şəhərlərdə yeni yollar istifadəyə verilib.

Bu bir həqiqətdir ki, işğaldan azad edilmiş rayon və şəhərlərimizə gediş-gəlişin və daşınma prosesinin təmini üçün yolların əhəmiyyəti çox böyükdür. Hazırda həmin ərazilərdə 14 yol-nəqliyyatı infrastruktur layihəsi icra olunmaqdadır. Tikintisinə ötən il başlanılan bir neçə mühüm yol infrastrukturu isə artıq istifadəyə verilib.

### Regionlardakı vəziyyət 20 il əvvəllə müqayisədə tamamilə dəyişib

Bu gün Azərbaycanın inkişafı yalnız onun paytaxtının hesabına deyil, regionlarının da hesabına baş verir. Bir faktdır ki, regionlarımızdakı vəziyyət 20 il əvvəllə müqayisədə tamamilə dəyişib. Respublikanın regionları, sözün əsl mənasında, yeni bir simaya malik olublar. Aparılan işlər regionların inkişaf potensialının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaradıb.

2004-cü ildən başlayaraq uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları davamlı olaraq həyata keçirilməkdədir. Hazırda regionların inkişafı üzrə sayca IV (2019-2023-cü illər) Dövlət Proqramı icra edilir.

Qlobal pandemiyanın nəticələrinin aradan qaldırılması işlərinə, Vətən müharibəsindən sonra həyata keçirilən sosial layihələrə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan geniş bərpa və quruculuq işlərinə baxmayaraq, eyni zamanda digər şəhər və rayonlarımızın da sosial-iqtisadi vəziyyəti yaxşılaşdırılır. Sosial-iqtisadi sahələrdə görülən işlər və buna dövlət başçısının birbaşa nəzarəti ictimaiyyət tərəfindən razılıqla qarşılanır və təqdir olunur.

Bu reallıqlar onu deməyə əsas verir ki, İlham Əliyevin sözü ilə əməli arasında heç bir fərq yoxdur. Verilən vədlər artıqlaması ilə yerinə yetirilib və bu gün də davam etdirilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***



# Dövlət sərhədlərinin mühafizəsi yüksək səviyyədədir

## Son bir ildə 19 yeni hərbi hissə kompleksi, 110 sərhəd-döyüş məntəqəsi yaradılıb





Azərbaycan sərhəd mühafizəsinin tarixi yalnız Azərbaycan sərhədçiləri üçün deyil, xalqımız və qədim ənənələrə malik dövlətçilik tariximiz üçün də əhəmiyyətlidir. Çünki dövlətlərin tarixi həm də onların sərhədlərinin tarixidir.

Milli sərhəd mühafizəsini yaşadan və inkişaf etdirən Dövlət Sərhəd Xidməti keçmişinə ehtiram, gələcəyinə inam hissi ilə yanaşır, bu günündən qürur duyur. Bu hisslərin təməlində dövlət sərhədlərinin mühafizəsinə ən yüksək səviyyədə verilən önəm durur.

Dünən Azərbaycan Sərhəd Mühafizəsinin yaranmasının 103 illiyi münasibətilə Dövlət Sərhəd Xidmətinin (DSX) rəisinin müavini general-leytenant Abbas Xəlilov və Aparat rəhbəri, general-mayor Elçin İbrahimov birgə mətbuat konfransı keçiriblər.

Əvvəlcə Azərbaycan Sərhəd Mühafizəsinin yaranması, o cümlədən Vətən müharibəsindəki DSX-nin şəxsi heyətinin döyüş və xidməti fəaliyyətini əks etdirən videoçarx nümayiş edilib.

Videoçarxda xatırladılıb ki, Dövlət Sərhəd Xidmətinin şəxsi heyəti 44 günlük Vətən müharibəsində düşmənə sarsıdıcı zərbə vuraraq dövlət sərhədlərimizə tam nəzarətin həyata keçirilməsinə və sərhədlərimizin mühafizəsinə nail olunması yolunda əsl qəhrəmanlıq və şücaət nümayiş etdirdi. Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanın Dövlət Sərhəd Xidmətinin qarşısında qoyduğu döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələr tam səfərbər edildi. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin işğaldan azad olunmasında şücaət və qəhrəmanlıq göstərdilər.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dövlət sərhədinin mühafizə və müdafiəsinin təşkili məqsədilə son bir ildə 19 yeni hərbi hissə kompleksi, 110 sərhəd-döyüş məntəqəsi, İranla dövlət sərhədində işğaldan azad olunmuş ərazilərdə 14 sərhəd zastavasının fəaliyyəti bərpa olunub. "Eyvazlı" və "Qazançı" dövlət sərhədindən buraxılış məntəqələri inşa edilib, eləcə də "Füzuli" Beynəlxalq Hava Limanında sərhəd nəzarətinin işi təşkil olunub. 1452 hektar ərazi mina və partlamamış sursatlardan təmizlənib, 1530 ədəd piyada əleyhinə, 1762 ədəd tank əleyhinə mina və 245 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. İşğaldan azad edilmiş ərazilərdə 104 kilometr məsafədə yeni yollar çəkilib, 223,7 kilometr məsafədə yolların əsaslı və cari təmiri həyata keçirilib.

Vurğulanıb ki, Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkarlanması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində xarici xüsusi xidmət orqanları tərəfindən əməkdaşlığa cəlb edilən bir nəfər Azərbaycan vətəndaşı saxlanılıb və 6 nəfər şübhəli şəxs qismində müəyyənləşdirilib. Terrorçuluğa qarşı mübarizə çərçivəsində 6 nəfər şəxs saxlanılıb. Qanunsuz miqrasiya, qaçaqmalçılıq, o cümlədən narkotik qaçaqmalçılığı ilə məşğul olan 14 mütəşəkkil cinayətkar dəstə zərərsizləşdirilib. Sahil Mühafizəsində Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin edilməsi, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi və xilasetmə tədbirlərinin həyata keçirilməsi zamanı 8 halda 12 nəfər dənizdə batma təhlükəsindən xilas edilib.

Diqqətə çatdırılıb ki, sərhəd naryadları tərəfindən sərhəd pozucularına qarşı təlimata uyğun silah tətbiq olunması nəticəsində 2 halda 2 nəfər yaralanıb, 5 halda 5 nəfər sərhəd pozucusu zərərsizləşdirilib. Dövlət Sərhəd Xidmətinin bütün sahələrində ardıcıl həyata keçirilən islahatların səmərəliliyi ilk növbədə xidməti göstəricilərdə əksini tapıb. Azərbaycan sərhədçiləri tərəfindən son bir il ərzində 448 nəfər sərhəd pozucusu, 861 nəfər sərhəd rejim pozucusu saxlanılıb, 2 min 594 nəfər hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan, 5 nəfər özgəsinə məxsus, 289 nəfər saxta sənədlə dövlət sərhədini pozmağa cəhd edərkən saxlanılıb. Ümumi dəyəri təxminən 76 milyon 443 min 870 manat olan qaçaqmalın, o cümlədən 95 min 151 ədəd psixotrop dərman preparatının və 1 ton 14 kiloqram 275 qram narkotik vasitələrin dövlət sərhədindən keçirilməsinin qarşısı alınıb.

Son bir il ərzində Azərbaycan-Rusiya dövlət sərhədində demarkasiya işləri davam etdirilib, 186 ədəd sərhəd nişanı quraşdırılıb. Onlardan 142-si əsas, 44-ü köməkçidir.

Vətən müharibəsində Dövlət Sərhəd Xidmətinin şəhid olmuş hərbi qulluqçularının ailə üzvlərinə lazımi diqqət və qayğının göstərilməsi, yaralanmış hərbi qulluqçuların DSX Hərbi Hospitalında, respublikamız ixtisaslaşmış tibb müəssisələrində müayinəsi, müalicəsi, reabilitasiyası təmin olunmuş və onlardan ağır yaralanmış (xəsarət almış) hərbi qulluqçuların xarici ölkələrdə müalicəsi təmin edilib.

Sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

***"Azərbaycan"***

# *Leyla ABDULLAYEVA:* "Londonda Azərbaycan səfirliyinə qarşı baş verən insident diplomatik nümayəndəliyə qarşı təxribatdır"

Londonda Azərbaycan səfirliyinə qarşı baş verən insident radikal dini qrup üzvləri tərəfindən diplomatik nümayəndəliyə qarşı edilən hücumdur, təxribatdır və bu hadisə diplomatik nümayəndəliyimizin təhlükəsizliyi məsələsini ciddi şəkildə gündəmə gətirir.

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva "Birləşmiş Krallığın Avropa üzrə naziri Qraham Stüartın Azərbaycan Respublikasının bu ölkədəki səfiri ilə görüşü zamanı Londonda Azərbaycan səfirliyinə olan hücumla bağlı dərin təəssüf hissi keçirdiklərini, bu ölkədəki diplomatik heyətin təhlükəsizliyinə böyük əhəmiyyət verdiklərini bildirməsi, həmçinin fikir azadlığının dinc yollarla ifadə edilməsinin tərəfdarı olduqlarını söyləməsi" ilə bağlı fikrinə münasibət bildirərkən deyib.

"Bir daha xatırladırıq ki, diplomatik nümayəndəliklərin, o cümlədən diplomatların təhlükəsizliyi beynəlxalq öhdəliklərə uyğun olaraq ev sahibi ölkəsi tərəfindən təmin edilməlidir. Bununla əlaqədar olaraq, Britaniya nazirinin diplomatik heyətin təhlükəsizliyini prioritet məsələ kimi qeyd etməsi əhəmiyyət kəsb edir. O ki qaldı, "fikir azadlığının ifadə edilməsinə", Londondakı səfirliyimizə hücumla heç bir əlaqəsi olmayan bu prinsipin azad cəmiyyətdə tətbiq edilməsi yollarına və ya qaydalarına yəqin ki, qədim Qərb demokratiyası olan Britaniyanın müvafiq qurumları yaxşı bələddirlər. Əks təqdirdə, hər hansı radikal və qeyri-qanuni addımın "azadlıq" pərdəsi altında şərh edilməsi ölkə təhlükəsizliyinə ciddi problemlər yarada bilər. Öz tərəfimizdən, Londondakı səfirliyimizə qarşı təxribatın ətraflı şəkildə araşdırılacağını və bu təxribatı törədənlərin məsuliyyətə cəlb ediləcəyini gözləyirik", - deyə Leyla Abdullayeva qeyd edib.

# Laçında qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib

Laçın rayonunun şərq hissəsində, Sarıbaba yüksəkliyinin şimal-qərb istiqamətində qanunsuz erməni silahlı dəstələrinin basdırdığı piyada əleyhinə mina sahəsi aşkar edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun Mühəndis Qoşunlarının bölmələri tərəfindən ərazinin kəşfi aparılıb. Aşkar edilmiş minalar xüsusi hazırlıq keçmiş istehkam qrupu tərəfindən zərərsizləşdirilib.

Avqustun 15-də, bir gün ərzində, minalanmış sahədən ümumilikdə 991 ədəd PMN-E növlü piyada əleyhinə mina çıxarılaraq daşınıb və təhlükəsizlik qaydalarına riayət olunmaqla utilizasiya edilib.

Xüsusi qeyd etmək lazımdır ki, bu istiqamətində aşkar edilən minaların hamısı Vətən müharibəsindən sonra - 2021-ci ildə Ermənistanda istehsal olunub.



# İŞİMİZ, GÜZƏRANIMIZ

*Əvvəli 1-ci səh.*



# Dünya çörəklə sınağa çəkilir

## Prezident İlham Əliyev: "... dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür"

Amma acı reallıqlar ondan ibarətdir ki, qlobal aqrar sektor ciddi çətinliklərlə üzləşməkdə davam edir. Dünya stabil deyil, münaqişələr ağırlaşır, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər ön plana çıxır. Onlardan ən vacibi taxılın qiymətlərinin artması fonunda dünyanın ərzaq bazarlarında baş verən təhlükəli qiymət sıçramaları və gözlənilməz qıtlığın yaranmasıdır. Dünyanın ən nəhəng taxıl ixracatçılarından Rusiya və Qazaxıstanın ixraca limit tətbiq etməsi isə daha böyük narahatlıqlar yaradır. Ukraynada gedən müharibə nəticəsində taxıl ixracında elə problemlər yaşanır ki, son nəticədə pat situasiyalar yaranır. Məsələn, bu gün bir sıra dövlətlər əllərində pulu ilə taxıl almaqda çətinlik çəkirlər.

Avqustun 12-də Prezident İlham Əliyev İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə dünyanın aqrar bazarında mövcud vəziyyətə toxunarkən perspektivlərin uğurlu həlli üçün ölkənin ərzaq təhlükəsizliyi məsələlərini önə çəkmişdir: "...dünyada gedən istənilən iqtisadi proses bizə də təsirsiz ötüşmür, bizə də təsir edir. O cümlədən dünyada mövcud olan ərzaq mallarının bahalaşması da, əlbəttə ki, bizə də təsir edir". Dövlət başçısı belə hesab edir ki, ərzaq təhlükəsizliyinin tam təmin edilməsi üçün biz özümüzü 100 faiz əsas ərzaq məhsulları ilə təmin etməliyik. Artıq Azərbaycan özünü ət məhsulları ilə 90 faiz, quş əti ilə 80 faiz, süd, süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edir. Bu rəqəmləri bir neçə ilə 100 faiz səviyyəsinə qaldırmaq mümkündür.

Ərzaq təhlükəsizliyi məsələlərinin fonunda özünü daha sərt büruzə verən odur ki, özümüzü buğda ilə yalnız 62 faiz təmin edə bilirik. Dövlət başçısına görə, işlənilən xüsusi proqramlar, yeni növ subsidiyaların tətbiqi buğda istehsalının kəskin artmasına zəmin yaradacaq: "Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır. Ona görə taxılın qiymətinin dünya bazarlarında qalxması bütün ölkələrə təsir göstərir. Ancaq bugünkü vəziyyət ondan ibarətdir ki, təkcə qiymətdən söhbət getmir, eyni zamanda taxıl qıtlığı yaşanılır".

Qlobal pandemiyanın və Rusiya-Ukrayna müharibəsinin təsiri altında bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə təmin edə bilmədikləri halda Azərbaycanda bu sahədə problem yoxdur. Dövlət başçısı müsahibəsində onu qeyd edir ki, biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq, eyni zamanda biz özümüz də artıq gübrə istehsalçısı olmuşuq və hətta karbamid gübrəsini ixrac edirik: "Özümüzü bütün problemlərdən tam sığortalamaq üçün praktiki işlər aparırıq və aparacağıq".

Bir sözlə, qarşıdakı illərdə aqrar islahatların intellektual səviyyədə tətbiqi səngiməyəcək, məhsuldarlığın artmasına fikir veriləcək. Suvarma layihələri, düzgün aqrotexniki tədbirlər və subsidiyaların ideal tətbiqi məhsuldarlığı böyük dərəcədə artırmağa zəmin yaradacaq. Lakin reallıqlar onu göstərir ki, qlobal ərzaq bazarlarında qiymətlərin artmasını qaçılmaz edən ciddi amillər formalaşır. Bunlardan biri də dünyada yaşanılan quraqlıqlar, su qıtlığıdır. Su yoxdursa, onu mütləq haradansa gətirirlər, torpaq zəifdirsə, gücləndirirlər. Faktiki olaraq bütün bu xərclər məhsulun mayasına oturur, qiymətlər sürətlə artır. Azərbaycan qiymətlərin stabilliyini qorumaq üçün gərgin səylər göstərir.

Lakin problemin qəlizliyi ondan ibarətdir ki, qiymətləri Azərbaycan hökuməti, ya da Tarif şurası yox, qlobal ərzaq bazarlarındakı tələblə təklif arasındakı silkələnmələr təyin edir. Yəni qiymətlərin qalxması Tarif şurasinin qərarı ilə yox, dünya bazarının diktə etdiyi sərt şərtlərlə bağlıdır. Belə gərgin məqamda hansı addımlar atılmalı, hansı tədbirlər görülməlidir?

Bu məsələ ilə bağlı dövlət başçısı müsahibəsində bütün dünyanın diqqətini cəlb edən ən ciddi bəyanat verdi: "Eyni zamanda biz artıq azad edilmiş torpaqlarda da əkin-biçinlə məşğuluq. Mənim göstərişimlə vaxt itirmədən əkin işləri aparılmışdır, minalardan təmizləmə işləri aparılmışdır. Hesab edirəm ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar, o cümlədən ərzaq təhlükəsizliyimizin tam təmin edilməsində bizə böyük kömək göstərəcək". Bu Azərbaycan xalqının qlobal iqtisadi çağırışlara necə reaksiya verdiyini göstərir.

İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı - həm maldarlıq, həm də bitkiçilik üçün çox münbit iqlim və təbii şərait mövcuddur. Əlbəttə ki, əsas məqsəd maksimum dərəcədə bütün imkanlardan səmərəli şəkildə istifadə etməkdir. Prezident İlham Əliyev izah edir ki, eyni zamanda ərzaq təhlükəsizliyi ilə bağlı mövcud olan məsələlər, bu günün məsələləri deyil: "Sadəcə olaraq, Rusiya-Ukrayna müharibəsi nəticəsində bu məsələlər daha da kəskinləşir. Əlbəttə, torpaqlarımız işğalçılardan azad olunandan sonra mən dərhal göstəriş verdim ki, biz vaxt itirmədən bu torpaqlarda əkin-biçinlə məşğul olmalıyıq. Bu il 50 min hektarda taxıl əkilmişdir və artıq məhsul yığımı da sona çatmaq üzrədir. Düzdür, məhsuldarlıq çox aşağıdır, bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə".

Ümumiyyətlə, ermənilərin apardığı müharibədə bütün vacib su hövzələrini ələ keçirməyə çalışırdılar və buna müəyyən qədər də nail olmuşdular. Tərtər, Həkəri, Bazar çayı və başqa çayların suyuna əlimiz belə çatmırdı.

Azad edilmiş torpaqlarda kənd təsərrüfatı müasir dünya təcrübəsi və yüksək texnologiyalar təşkil edilir. Bu ona imkan yaradır ki, oraya qayıdan insanlar əkin-biçinlə məşğul olmaqla güzəranını təmin etsinlər və eyni zamanda ölkəmizin ərzaqla təminatı və ixrac imkanlarının artmasında vacib rol oynasınlar.

Prezident belə hesab edir ki, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında taxılçılıq, eləcə də üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etməlidir. Fermerlərə, oraya qayıdacaq vətəndaşlara həm dəstək, həm də subsidiyalar veriləcək: "Bu bölgələrdə - Şərqi Zəngəzur və Qarabağ bölgələrində kənd təsərrüfatının inkişafı, yenə də deyirəm, ən müasir əsaslar üzərində qurulmalıdır. Çünki biz faktiki olaraq işlərə sıfırdan başlayırıq, ona görə səhvə yol verə bilmərik. Vaxtilə Azərbaycanda aparılmış kənd təsərrüfatı islahatı zamanı buraxılan səhvlərə yol verə bilmərik. Hər şey düzgün, şəffaf olmalıdır və əminəm ki, bunun nəticəsində ən böyük məhsuldarlıq məhz işğaldan azad edilmiş torpaqlarda olacaq".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

## Daha 1300 müharibə əlilinə birdəfəlik ödəmə təyin edilib

Prezident İlham Əliyevin tapşırığı əsasında yeni sosial dəstək proqramının - 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin birdəfəlik ödəmə ilə təminatı proqramı davam edir.

Son bir həftədə bu kateqoriyalara aid olan daha 1300-dən çox müharibə əlilinə proaktiv qaydada birdəfəlik ödəmə təyin edilərək bank hesablarına köçürülüb, bu barədə onlara SMS göndərilib.

Beləliklə, qeyd olunan dövrədək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş artıq 12300-dən çox şəxsə proaktiv qaydada birdəfəlik ödəmə təyin olunub.

## 7 ayda pensiya ödənişlərinə 2,8 milyard manatdan çox vəsait yönəldilib



Yanvar-iyul aylarında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 6 faiz (164 milyon manat) çox olmaqla, 2 milyard 882 milyon manat vəsait yönəldilib.

Pensiyalarda artım dinamikası davam edib. Bu ilin 1 avqust tarixinə pensiyaların orta aylıq məbləği 11,7 faiz artaraq 368, yaşa görə orta aylıq pensiya 11,3 faiz artaraq 399 manata çatıb.

Cari ilin əvvəlindən minimum aylıq pensiya daha 20 faiz artırılaraq 240 manata çatdırılıb, pensiyaların sığorta hissəsi indeksləşdirilib, habelə pensiyaçılara maddi yardımların ayrılması təmin edilib. 1,2 milyon pensiyaçını əhatə edən həmin artımlar üçün illik 440 milyon manat əlavə vəsait ayrılıb.

Yanvar-iyul aylarında 17,2 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 65,5 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Keyfiyyət sahəsində auditin aparılması üzrə yeni dövlət standartı qəbul olunub

Müəssisə və təşkilatlarda idarəetmə sistemini daim nəzarətdə saxlamaq, onun effektivliyinin qiymətləndirilməsi və artırılması məqsədilə beynəlxalq standart əsasında AZS ISO 19011:2022 "İdarəetmə sistemlərinin auditinin keçirilməsi üzrə rəhbəredici sənəd" yeni dövlət standartı qəbul edilib.

"Keyfiyyət Assosiasiyası" İctimai Birliyi tərəfindən təqdim edilən standart layihəsi İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin tabeliyində olan "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxs tərəfindən təsdiqlənərək standartlaşdırma üzrə normativ sənədlərin Dövlət Fonduna daxil edilib.

Yeni standart audit proqramının idarə edilməsi və idarəetmə sisteminin auditinin keçirilməsi üzrə təlimatları və prosedurları müəyyən edir.

## Bir qrup xarici tələbə DNF-da olub

Müxtəlif ölkələrdən olan bir qrup tələbə Dövlət Neft Fondu ilə tanış olub.

Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Alman Akademik Mübadilə Xidmətinin (DAAD) əməkdaşlığı ilə təşkil olunan "Post-Oil Economy" beynəlxalq yay məktəbinin 4-cü 2022-ci il buraxılışı çərçivəsində Almaniya, İtaliya və Azərbaycandan olan bir qrup tələbə Azərbaycan Respublikası Dövlət Neft Fonduna səfər ediblər.

Fondun inzibati binası və muzeyi ilə tanış olan tələbələrə daha sonra fond əməkdaşları ARDNF-nin fəaliyyəti, neftdən əldə edilən gəlirin bölündüyü sahələr, vəsaitlərin idarə olunması və ölkənin sosial-iqtisadi tərəqqisinə xidmət missiyası altında fondun maliyyələşdirdiyi ümummilli layihələr barədə ətraflı məlumat veriblər.

## Neft ucuzlaşıb

Dünya birjalarında neft qiymətləri ucuzlaşıb.

AZƏRTAC xəbər verir ki, Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,82 dollar azalaraq 94,28 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,55 dollar ucuzlaşaraq 88,86 dollar olub.

## "Şahdəniz Alfa" platforması profilaktik işlər üçün müvəqqəti dayandırılıb

bp "Şahdəniz" yatağının işlənməsi layihəsinin əməliyyatçısı kimi məlumat verib ki, "Şahdəniz"in illik iş proqramının bir hissəsi olaraq "Şahdəniz Alfa" platformasında və Səngəçal terminalındakı "Şahdəniz-1" qurğularında planlaşdırılmış profilaktik işlər proqramı həyata keçirilməyə başlayıb.

bp-dən bildirilib ki, plana əsasən, "Şahdəniz Alfa" platformasından hasilat 2022-ci il avqust ayının 14-dən başlayaraq 14 gün ərzində dayandırılır. Planlaşdırılmış profilaktik işlər, inspeksiya və layihə işlərinin effektiv şəkildə aparıla bilməsi məqsədini daşıyır. Proqram çərçivəsində Səngəçal terminalının "Şahdəniz-1" hissəsində vacib təhlükəsizlik avadanlıqlarının qabaqlayıcı profilaktikası və yoxlama işləri də aparılacaq. Bununla yanaşı, "Şahdəniz Alfa" platformasında da müxtəlif təmir işləri də görüləcək.

Belə proqramlar normal əməliyyatların bir hissəsidir və onlar planlaşdırılmış şəkildə müntəzəm həyata keçirilir. Bu proqramın hazırlığına ötən ildən başlanıb və proqram üzrə həyata keçirilən işlər cari ilin illik iş proqramı və büdcəsinə daxil edilib. "Alfa" platformasının müvəqqəti dayandırılması da bu ilin hasilat planına daxil olunub.

Proqram müddəti ərzində "Şahdəniz Bravo" platforması və ümumilikdə "Şahdəniz-2" hasilat və ixrac sistemi, Səngəçal terminalındakı "Şahdəniz-2" qurğuları normal əməliyyatlarını, o cümlədən regional və Avropa bazarlarına qaz təchizatını davam etdirəcək.

# Azərbaycana 171 ölkədən turist gəlmişdir

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, Dövlət Statistika Komitəsi 2022-ci ilin yanvar-iyul aylarında ölkə üzrə turizmin vəziyyəti barədə məlumat yayıb.

Məlumatda bildirilir ki, bu müddətdə Azərbaycana dünyanın 171 ölkəsindən 832 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 26,4 faizi Rusiya Federasiyası, 21,0 faizi Türkiyə, 11,6 faizi İran, 6,8 faizi Səudiyyə Ərəbistanı, 4,8 faizi Gürcüstan, 3,0 faizi Pakistan, 2,6 faizi Hindistan, 2,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2,0 faizi Ukrayna, 1,9 faizi Qazaxıstan, 1,5 faizi Küveyt, hər birindən 1,4 faiz olmaqla, İsrail və Oman, hər birindən 1,2 faiz olmaqla, Böyük Britaniya və Özbəkistan, 10,7 faizi digər ölkələrin vətəndaşları olmuşdur.

Ötən ilin eyni dövrü ilə müqayisədə Səudiyyə Ərəbistanından gələnlərin sayı 351,2, Küveytdən - 166,6, Omandan - 156,9, Pakistandan - 31,9, Hindistandan - 18,2, Bəhreyndən - 8,6, Birləşmiş Ərəb Əmirliklərindən - 7,3, İsraildən - 7,1, Qazaxıstandan - 5,8, ABŞ-dan - 4,4, Almaniyadan - 3,2, Fransadan - 2,8, Böyük Britaniyadan - 2,1, Türkiyədən - 1,9, İrandan - 1,8, Ukraynadan - 1,7, Rusiya Federasiyasından - 1,7 dəfə, Gürcüstandan - 22,5 faiz artmışdır.

Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 3,4 dəfə artaraq 202,9 min, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 2,5 dəfə artaraq 41,9 min, MDB ölkələrindən gələnlərin sayı 1,8 dəfə artaraq 278,7 min nəfər olmuşdur.

2021-ci ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 2 dəfə artaraq 829,4 min nəfər olmuşdur. İrana gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 4,3, Türkiyəyə gedənlərin sayı 2,2, Gürcüstana gedənlərin sayı 1,9 dəfə, Rusiya Federasiyasına gedənlərin sayı isə 23,2 faiz artmışdır. Ölkə vətəndaşlarının 47,9 faizi Türkiyəyə, 16,6 faizi Rusiya Federasiyasına, 12,2 faizi İrana, 8,3 faizi Gürcüstana, 15,0 faizi digər ölkələrə səfər etmişdir.



# Ölkə üzrə orta aylıq pensiya 12 faiz artmışdır

*Əvvəli 1-ci səh.*

Bununla yanaşı, əhalinin sosial müdafiəsinin təmin edilməsi məqsədilə ayrı-ayrı kateqoriyadan olan şəxslərə müxtəlif növ aylıq sosial müavinətlər təyin edilir. Belə ki, 2022-ci il iyulun 1-i vəziyyətinə yaşa görə müavinət alanların sayı 124,1 min (ötən ilin iyulun 1-i vəziyyətinə 109,2 min), əlilliyə görə - 52,2 min nəfəri 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər olmaqla cəmi 210,4 min (müvafiq olaraq 54,4 min və 212,9 min), ailə başçısını itirməyə görə - 53,2 min (48,8 min), digər müavinət növlərini alanların sayı isə 22,5 min (23,7 min) nəfər olmuşdur.

Eyni zamanda valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 207 nəfər qəyyumuna aylıq müavinət verilmişdir. Bununla yanaşı, şəhid ailələrinin, müharibə və ya 1990-cı ilin 20 yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin, Çernobıl qəzası nəticəsində I və II dərəcə əlilliyi müəyyən edilmiş, yaxud vəfat etmiş şəxslərin, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının və müddətli hərbi xidmət qulluqçularının 5,8 min ailəsinə 9,1 min uşaq üçün aylıq müavinət verilmişdir. Eləcə də 2082 nəfər bir yaşınadək uşağı olan 2011 aztəminatlı ailəyə, övladlığa götürülən, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş 10 uşağa görə 9 ailəyə və beşdən çox uşağı olan 2,5 min qadına 10,1 min uşaq üçün sosial müavinət, əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkən 327 şəxsə isə kompensasiya verilmişdir.

**Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2022-ci il yanvarın 1-dən orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq bütün növ əmək pensiyalarının sığorta hissəsi indeksləşdirilərək artırılmış, qulluq stajına görə əlavələr alan əmək pensiyaçıları istisna olmaqla digər əmək pensiyaçılarına 2022-ci il üzrə 200 manat məbləğində maddi yardım, qulluq stajına görə əlavələr alan əmək pensiyaçılarına isə 2022-ci ildə aylıq əmək pensiyasının 10 faizi məbləğində aylıq maddi yardım təyin olunmuşdur**

Cari ilin ilk altı ayı ərzində məcburi dövlət sosial sığorta haqları hesabına verilənlər istisna olmaqla, 27,7 min ailəyə 29,1 min uşağın anadan olmasına görə, radiasiya qəzası nəticəsində zərər çəkmiş 3,6 min şəxsə müalicə üçün və penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş 3,7 min nəfərə birdəfəlik müavinət verilmişdir.

2022-ci il iyulun 1-i vəziyyətinə 39,6 min aztəminatlı ailənin 174,6 min üzvü ünvanlı dövlət sosial yardımı almış və onun bir nəfərə düşən orta aylıq məbləği 78,42 manat olmuşdur.

Bunlarla yanaşı, cari ilin iyulun 1-i vəziyyətinə müxtəlif kateqoriyadan olan 376,8 min şəxsə Azərbaycan Respublikası Prezidentinin təqaüdü təyin edilmişdir.



# Son ifasında "Əlvida Bakı" dedi

Onun nə musiqiyə olan sonsuz sevgisi, bağlılığı, nə də istedadı Maqomayevlər üçün qeyri-adi deyildi. Bu ailədə hər kəsin musiqi qabiliyyəti var idi. Babası Müslüm Maqomayev bəstəkar, musiqiçi, dirijor, ictimai xadim kimi şöhrət qazanmışdı.

Azərbaycan klassik musiqisi sahəsində tanınan, operamıza "Şah İsmayıl" və "Nərgiz" kimi iki dəyərli əsər bəxş edən bəstəkar cəmi əlli bir il ömür sürübdür. İki oğlu - Camal və Maqomed musiqini çox seviblər. Onlar musiqi məktəbində təhsil almayıblar, ancaq Camal fortepiano və royalda, kiçik qardaşı royalda peşəkar musiqiçilər kimi ifa etməyi bacarıblar. Maqomedin həm də məlahətli səsi olub. Arabir oxuyarmış.

Maqomedin həyat yoldaşı Ayşət Axmedovna gözəl səsli, dram aktrisası kimi tanınıb. Onlar Maykopda tanış olub, evlənib Bakıya gəliblər.

### Şöhrətli babasının adını daşıyırdı

Musiqi sənətinə sevgi, pərəstiş dolu belə bir ailədə 1942-ci ilin 17 avqustunda dünyaya göz açan uşağa şöhrəti dillərdə gəzən babasının adını veriblər. Atası Maqomed istedadlı teatr rəssamı olub. Onun arzular, ümidlər, uğurlar dolu gəncliyinə müharibə qıyıb. Maqomed Maqomayev Böyük Vətən müharibəsində iştirak edib. Sovet ordusunun qələbəsinə sayılı günlər qalmış döyüşdə həlak olub.

O vaxtlar Bakıda Maqomayevlər ailəsi ilə birgə yaşayan Ayşət Axmedovna Maqomedin qara xəbəri gəldikdən sonra doğulub-böyüdüyü Maykop şəhərinə qayıdıb. Teatrda fəaliyyətini davam etdirmək üçün Maykopdan da Vışniy Voloçekə köçüb. Sonralar yenidən ailə qurub, bir oğlu, bir qızı dünyaya gəlib.

Balaca Müslüm isə anasının istəyi ilə Bakıda qalıb, əmisi Camalın himayəsində böyüyüb. Həssas uşaq idi. Doğmaları onun uşaq dünyasını kədərə, qüssəyə boyamamaq üçün atasının bir daha dönməyəcəyini illərlə ona söyləməyiblər. Bu acı həqiqəti Müslümə on yaşına çatanda deməli olublar.

Qohumları arasında rahat yaşayırdı. Əmisi sevimli qardaşı oğluna yetimliyini hiss etdirməmək üçün əlindən gələni əsirgəmirdi. Ancaq ata-ana sevgisindən məhrum böyüyürdü. Anasının qərarının Müslümə bir xeyri olub ki, əyalətdə yox, Bakı kimi geniş imkanlara malik şəhərdə təhsil alıb, boya-başa çatıb. Kiçik yaşlarından onun fitri istedadını görməmək, hiss etməmək mümkünsüz olub. Odur ki, balaca Müslümün təhsili, gələcək sənət yolu barədə çox düşünüb-daşınmağa gərək qalmayıb. 1949-cu ildə adını Bakı Konservatoriyasının nəzdindəki onillik musiqi məktəbinə yazdırıblar.

Uşaqlıq illəri bir-birindən maraqlı, unudulmaz xatirələrlə iz sala-sala ömründən keçib gedirdi... O qayğısız, gözəl çağlarını sonralar - şöhrəti dillərdə gəzəndə tez-tez həsrətlə yada salıb. Bakıda ona çox doğma olan məhəlləsini, "Nizami" kinoteatrının yanında yerləşən uşaqlığının, yeniyetməliyinin keçdiyi evi xiffətlə xatırlayıb. Gələcəyin məşhur müğənnisinin ilk dinləyiciləri də orada, həyətlərindəki dostları olmuşdu...

O illərdə gələcəyinə ümidlə baxırdılar. Musiqi istedadı yalnız qohumlarının deyil, təhsil aldığı məktəbdə müəllimlərinin və yoldaşlarının diqqətini cəlb etmişdi. İlk dəfə on dörd yaşında Dənizçilər klubunda səhnəyə çıxıb. On beş-on altı yaşlarında artıq pərəstişkarlarının sayı az olmayıb. Bariton səsli gənc müğənni məktəblərdə, institutlarda, klublarda, hətta Bakı bulvarında oxumağa dəvət edilib. O isə hələ istedadlı, savadlı və təcrübəli müəllimlərdən dərs alır, musiqi sənətinin incəliklərini həvəslə öyrənirdi. Müslümün musiqi savadı almasında Aleksandr Akimoviç Milovanovun, konsertmeyster Tamara İsidorovna Kretinqenin rolu böyük olub.

### Bakılı gənc dünyanı fəth edir

On doqquz yaşında, 1961-ci ildə o, Bakı hərbi dairəsinin mahnı və rəqs ansamblının solisti idi. İlk qastrol səfərinə də o vaxtlar çıxıb. Bir il sonra isə onu çox sevən, qayğısını çəkən Maestro Niyazinin tövsiyəsi ilə Helsinkidə keçirilən Gənclərin və Tələbələrin VIII Ümumdünya festivalına göndərilib. Bakıya beynəlxalq mükafatla dönüb. Geniş tirajlı "Oqonyok" jurnalında "Bakılı gənc dünyanı fəth edir" başlıqlı məqalədə iyirmi yaşlı müğənninin uğurundan bəhs olunub.

Pərəstişkarlarının sayı gündən-günə artırdı. Onların arasında cazibəsinə düşən xanımlar çox idi. Bu qeyri-adi ifalı, bariton səsli, boylu-buxunlu, qədd-qamətli, yaraşıqlı gənc müğənninin özü də gözəllərə etinasız qalmırdı. On səkkiz yaşında könlünü verdiyi Ofelya ilk məhəbbəti idi. Bir-birilərinə aşiq olan gənclər evləniblər. Ancaq yola gedə bilməyib, 1962-ci ildə ayrılıblar. Qızları Marina anası ilə qalıb.

Bir il sonra, iyirmi bir yaşında Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərindəki çıxışları Müslümə yeni yaradıcılıq uğurları gətirib. İlk solo-konsertini həmin ilin, 1963-cü ilin noyabrında Çaykovski adına Konsert Zalında verib. "Kreml" Sarayındakı konsertindən sonra o, artıq bütün ölkədə sovet estradasının yeni ulduzu kimi təqdim edilib.

Sanki şöhrət özü Müslüm Maqomayevin ardınca düşmüşdü. Gənc müğənni tanınmaq, məşhurlaşmaq üçün cəhd göstərib yollar axtarmırdı. Ancaq fitri istedadının dəyərini də bilirdi. Təmkinlə, yorulmadan, səbirlə oxuyub öyrənirdi. Tamaşaçıların qarşısına məsuliyyətlə çıxırdı.

1963-cü ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti oldu. Həmin vaxtlar estrada konsertlərində də çıxış edirdi. 1960-cı illərin ortalarında şöhrəti SSRİ-nin sərhədlərini aşdı. Müslüm Maqomayevə solo konsert təkliflərinin ardı-arası kəsilmirdi. Onun oxuduğu konsert salonlarında boş yer tapmaq mümkün deyildi. Konsertləri böyük idman saraylarında keçiriləndə də salonda ayaq basmağa yer qalmırdı.

1964-1965-ci illərdə Milanın "La Skala" teatrında təcrübəyə çətinliklə də olsa gedə bildi. Səfəri Azərbaycanda geniş işıqlandırıldı, haqqında film çəkildi.

### Azad ruhlu, çərçivələrə sığmayan sənətkar

Təcrübəsini bitirdikdən sonra Moskvanın Böyük Teatrına dəvəti qəbul etmədi. Müslüm Bakıya qayıtdı.

Azad ruhlu, çərçivələrə sığmayan Müslüm Maqomayev hər günü məcarayla dolu ömür yaşayırdı. Sovet dövrünün sərt qayda-qanunlarından hətta Milanda da rahatlıq tapmayıb özünü nəzarət altında hiss edəndə də, sonralar daha çox çətinliklə üzləşəndə də, qastrollarına qadağa qoyulanda, neçə-neçə təklifdən əl çəkməli olanda da ruhdan düşmədi. Müslüm Maqomayev bütün təzyiqləri, qadağaları, həsədləri, paxıllıqları öz ifası ilə puç edirdi...

1966-cı ildə Parisin Olimpiya Teatrına dəvət olunanda Azərbaycanın ozamankı rəhbərliyi respublikada az çıxış etdiyini bəhanə gətirib səfərinə qadağa qoydu. Yekaterina Furtsevanın köməyi ilə konsert günü Parisə yetişə bildi. Çıxışından sonra Olimpiya Teatrının direktoru Müslümə illik çalışma müqaviləsi təklif etdi. Ancaq növbəti qadağa Moskvadan gəldi. SSRİ Mədəniyyət Nazirliyi Müslüm Maqomayevin dövlət konsertlərində çıxış etməli olduğunu səbəb göstərdi.

O illərdə haqqında danışılan hadisələrdən biri də Rostov-Donda 40 min nəfərlik stadionda verdiyi konsertə görə 200 əvəzinə 600 rubl qonorar alması idi. Məbləğin qanuni olması və Mədəniyyət Nazirliyi tərəfindən təsdiqlənməsi barədə tədbirin adminstratorlarının dedikləri doğrulanmadı. Məlumat müğənniyə Parisdə "Olimpiya"da çıxış edərkən verildi. O zaman Fransada qalmaq imkanı vardı. Nə vətənindən ayrılmağa, nə də bununla SSRİ-də qalan qohumlarını bəlaya salmağa könlü razı oldu. Başının üstünü almış təhlükəyə rəğmən qayıtdı. Hüquq-mühafizə əməkdaşları çox çək-çevirə salsalar da, onun günahkar olduğunu təsdiq edən sübut tapmadılar. Müğənni ödənilən məbləği rəsmi şəkildə imzalayaraq qəbul etmişdi. Ancaq SSRİ Mədəniyyət Nazirliyi ona Azərbaycandan kənarda qastrollarda çıxış etməyi qadağan etdi.

Azərbaycan Dövlət Konservatoriyasında Şövkət Məmmədovanın sinfində oxudu. 1968-ci ildə təhsilini başa vurdu.

Müslüm Maqomayevin ifasına heyran olanlar arasında Sovet İttifaqına müxtəlif vaxtlarda rəhbərlik etmiş şəxslər, yüksəkvəzifəlilər də var idi. O vaxt SSRİ-nin DTK sədri Yuri Andropov Mədəniyyət nazirinə zəng vurmuşdu. Müslümün DTK-nın yubileyində çıxış etməsini istəmişdi. Yekaterina Furtsevaya olanları xatırladanda DTK sədri: "Ona iradımız yoxdur, qoyun gəlib oxusun", - demişdi.

### Şöhrətin zirvəsində

Müğənni şöhrətinin zirvəsindəydi. Tamaşaçıları oxuduğu konsert salonlarına, stadionlara sığmırdı, onu ayaq üstə dinləməyi belə özləri üçün xoşbəxtlik sayırdılar. Pərəstişkarları müğənnini uzaqdan görmək üçün yollarında dayanırdılar. Sovet İttifaqının ən möhtəşəm fəxri adlarına, dövlət mükafatlarına gənc yaşlarında layiq görülürdü. Otuz bir yaşında SSRİ Xalq artisti fəxri adını aldı.

Repertuarı zəngin idi. Yüzlərlə ariya, romans, estrada mahnıları ifa etməklə bərabər, müxtəlif janrlarda musiqi əsərləri bəstələyirdi. "Gümüşgölün əfsanəsi", "Təxribat", "İstanbul reysi" filmlərinin musiqilərini yazdı. Dostu, Xalq artisti, rejissor Eldar Quliyevin təklifi ilə şair Nizami roluna çəkildi.

1969-cu ildə Polşanın Sopot şəhərində keçirilən IX Beynəlxalq Mahnı Festivalında mükafat qazandı. Kann festivalında "Qızıl val"la mükafatlandırıldı. 1971-ci ildə haqqında "Oxuyur Müslüm Maqomayev" adlı film-konsert çəkildi. 1975-ci ildə Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri təyin olundu. Həmin orkestrlə SSRİ-nin bir çox şəhərində, eləcə də Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər verdi.

1974-cü ilin 23 noyabrında o, dünya opera ifaçılığının inkişafında xidmətləri olan, SSRİ Xalq artisi Tamara Sinyavskaya ilə evləndi. Müslüm Maqomayev ömrünün sonunadək onunla ayrılmadı. Səhnədə də tərəf-müqabil oldular. Müslüm rejissor Qleb Drozdovun sifarişi ilə "İqor polku haqqında dastan" əsərinin motivləri əsasında hazırlanan "Yaroslavna" tamaşasına musiqi bəstələdi. Tamaşada o, knyaz İqor, Tamara Sinyavskaya Yaroslavna rollarını ifa etdi.

Sovet İttifaqının paytaxtına köçüb uzun illər orada yaşadı. Moskvada ən nüfuzlu sənətkarlardan biri oldu, məşhur bəstəkarlar onun səsi üçün mahnılar bəstələdilər.

Onu Moskvada da hər cür həsəddən, paxıllıqdan uzaq, təvazökar, gözü-könlü tox, xeyirxah, səxavətli insan kimi tanıdılar. Dünyaşöhrətli sənətkarın uzun illər evi də olmadı, "Rossiya" mehmanxanasında qaldı...

Dünya musiqisevərlərinin qəlbini fəth edən müğənni heç zaman Bakını unutmadı. Müslüm Maqomayev bu şəhərə sonsuz sevgisini möhtəşəm konsertlərinə şair Nəbi Xəzrinin sözlərinə bəstələdiyi məşhur "Azərbaycan" mahnısı ilə başlamaqla da ifadə etdi.

O, səhnə ilə vidalaşanda pərəstişkarları ümidlərini üzmədilər. Son ifasında da doğma şəhərini yada saldı, "Əlvida Bakı", - dedi.

Bakı üçün çox darıxır, imkan tapan kimi həyat yoldaşıyla gəlirdi. 2002-ci ildə Bakı Musiqi Akademiyasında Müslüm Maqomayevin 60 illiyinə həsr olunmuş tədbir keçirildi, sonda ona Bakı Musiqi Akademiyasının fəxri professoru adı verildi. 2002-ci il sentyabrın 6-da "İstiqlal" ordeni ilə təltif edildi.

Səhhətində problemlər yaranması barədə yayılan xəbərlər musiqisevərləri kədərləndirirdi. 2008-ci ilin iyununda o, Moskvadakı Bakulev xəstəxanasına aparıldı. Dünyaşöhrətli sənətkar - müğənni, bəstəkar, pianoçu, rəssam, aktyor Müslüm Maqomayev oktyabrın 25-də uzun sürən xəstəlikdən sonra vəfat etdi. Oktyabrın 28-də Moskvada 45 il əvvəl ilk solo konsertini verdiyi Çaykovski adına salonda müğənni ilə vida mərasimi keçirildi. Aleksandr Andreyev dedi: "Rusiyalıların kədərini ifadə etmək üçün söz tapmaq çətindir. Onun istedadı təkcə konsert salonlarını və stadionları doldurmurdu, milyonlarla tamaşaçı onun istedadına heyran idi. Biz onun pərəstişkarı idik. O, Azərbaycanın bizə bəxş etdiyi Bakı bülbülü, həm də Rusiyanın sərvəti idi".

Oktyabrın 29-da həmvətənləri Müslüm Maqomayevlə babasının adını daşıyan Azərbaycan Dövlət Filarmoniyasının binasında vidalaşdılar. Müslüm Maqomayev birinci Fəxri xiyabanda dəfn edildi.

Onun bütün ömrü boyu qəlbində gəzdirdiyi doğma vətəninə sevgisini vəfatından sonra da "Azərbaycan", "Sevgili canan", "Sənsiz", "Elegiya", "Zibeydə", "Üzüyümün qaşı firuzədəndir" və başqa əsərlər yaşatdı.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qubada yazıçı-dramaturq Əmir Pəhləvanla görüş keçirilib





"Azərkitab" Kitab Mərkəzinin Quba filialında görkəmli yazıçı-dramaturq Əmir Pəhləvanla görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin sədri, "Əhməd Cavad" mükafatı laureatı, şair Ramiz Qusarçaylı çıxış edərək Əmir Pəhləvanın həyat və yaradıcılığı haqqında danışıb. O, Ə.Pəhləvanın həm müasir Azərbaycan ədəbiyyatının və kino sənətinin görkəmli nümayəndəsi kimi qazandığı ədəbi uğurlar barədə, eyni zamanda ədibin Qazaxıstan və Qırğızıstan respublikalarının, Şimali Kipr Türk Respublikası dövlət mükafatlarının laureatı olduğu haqqında görüş iştirakçılarına ətraflı məlumat verib.

Tarix elmləri doktoru, professor, şair Şahin Fazil görüşdə bildirib ki, Əmir Pəhləvanı Azərbaycan radiosunun Cənub verilişləri redaksiyasında, "Baku", "Bakı", "Azərbaycan müəllimi" qəzetində işlədiyi və "İlham" qəzetinin təsisçisi və baş redaktoru olduğu dövrdən tanıyır. Yazıçı-dramaturqun 30 kitabı Azərbaycanda, 20 kitabı Ukraynada, 7 kitabı keçmiş postsovet respublikalarında, 15 kitabı isə Avropa ölkələrində və Amerikada çap olunduğu qeyd edilib.

Azərbaycan Dövlət Pedaqoji Universiteti Quba filialının direktoru, fizika elmləri doktoru Yusif Alıyev çıxışında Əmir Pəhləvanın "Step LTD" kinoşirkətini təsis etdiyindən, şirkətin xətti ilə yaradılan "Fransız", "Qarabağ şikəstəsi", "Spasibo", "Qız qalası" bədii filmlərinin, "Bakı nefti və Nobellər", "Avtoritet", "Göyçay yəhudiləri", "Doqquzuncu oğuz uyğurları", "Kurqanlar", "Hunqoriya", "Şəhriyar", "Sivilizasiya beşiyi - Çin", "Tahirə" və başqa sənədli ekran əsərlərinin müəllifi və rejissoru kimi bu filmlərdə tariximizin və taleyimizin maraqlı səhifələrini uğurla canlandırmasından geniş şəkildə bəhs edib. ADPU Quba filialının direktor müavini, fəlsəfə doktoru Aysel Şeydayeva çıxışında belə görüşlərin əhəmiyyətindən danışıb, Əmir Pəhləvana filialın tələbələri ilə də görüşünün təşkil edilməsi ilə bağlı təklif edib.

Görüşdə Xaçmazda fəaliyyət göstərən "Ulduzlar" ədəbi məclisinin sədri, şair Fərzalı Ziyanur, Qubada fəaliyyət göstərən "Gülüstan" ədəbi məclisinin sədri, yazıçı Şixəmməd Seyidməmmədov, Qusar yazarları adından şair Ceyhun Ağabəyov, həmçinin bölgədə fəaliyyət göstərən digər şair və yazıçılar çıxış edərək yazıçı-dramaturqun yaradıcılığından söz açıblar.

Tədbirin sonunda Əmir Pəhləvan görüş iştirakçılarını maraqlandıran sualları cavablandırıb, yaradıcılıq planları barədə danışıb. Maraqlı görüşün təşkili üçün Azərbaycan Yazıçılar Birliyi Quba bölməsinin rəhbərliyinə təşəkkürünü bildirib.

# Ermənistan yeni mərhələnin başladığını anlamalıdır

**Beynəlxalq hüququn norma və prinsiplərini pozan İrəvan baş verənlərdən nəticə çıxarmalıdır**

*Əvvəli 1-ci səh.*

### "Biz istədiyimizə nail olmuşuq"

Artıq Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bu silahlı qrupların tam olaraq təmizlənməsi zamanı çatıb. 2020-ci ildə imzalanan üçtərəfli Bəyanatdan sonra iki il ərzində ermənilər tərəfindən bir çox təxribatlar həyata keçirildi və ordumuz tərəfindən müxtəlif dövrlərdə düşmənə adekvat və layiqli cavablar verildi.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan şəhidinin qanı düşmənlərə baha başa gəldi və onlar bunu unutmamalıdırlar: "Əgər yenə də buna oxşar təxribat törədilərsə, cavab da eyni olacaq. Heç kim bizə mane ola bilməz, heç kim bizi durdura bilməz".

Müharibədə zəfər çaldığımızı, ərazi bütövlüyümüzü bərpa etdiyimizi xatırladan dövlət başçısı bildirib: "Nə üçün bizim övladlarımız müharibədən sonra ölməlidir? Nə üçün ermənilər tərəfindən öldürülməlidir? Biz buna imkan verə bilmərik. Bir daha demək istəyirəm, əgər yenə də buna oxşar təxribat təkrarlanarsa, cavab daha sərt olacaq, daha da peşman olacaqlar, daha gur səslə imdad diləyəcəklər. Amma yenə də deyirəm, bizim niyyətimiz yeni müharibə başlamaq deyil. Kifayətdir. Biz istədiyimizə nail olmuşuq".

Azərbaycanın istəyi erməni silahlı birləşmələrinin Qarabağı birdəfəlik tərk etmələridir. Bu, Ermənistanın öhdəliyidir, 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən imzalanmış kapitulyasiya aktında təsbit edilib.

### Erməni təxribatına layiqli cavab

Prezident ermənilərin torpaqlarımızdan, o cümlədən Laçından çıxarılmasının vacibliyini söylədi. Diqqətə çatdırıldı ki, Azərbaycanın öz ərazisində hərbi əməliyyatlar aparmasına kimsə mane ola bilməz. Əməliyyat sonrası baş verənlərə baxdıqda "Qisas" əməliyyatının öz misiyyasını uğurla başa vurduğunu demək olar. Azərbaycan ərazi bütövlüyünü tam şəkildə bərpa edəcək. Bunun üçün ölkəmizin antiterror əməliyyatı aparmağa, ərazilərimizi terrorçulardan təmizləməyə gücü və qüdrəti var. Ordumuz Vətən müharibəsində öz sözünü deyib, Ermənistan hərbi qüvvəsini tamamilə məhv edib. Gərginliyin ciddi şəkildə artmasının əsas səbəbi Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməməsidir. Ermənistan məğlub tərəfdir, kapitulyasiyaya gedib, üçtərəfli birgə Bəyanat imzalayıb. Həmin sənədin bəndlərində nəzərdə tutulanları icra etməlidir.

### Prezidentdən Qarabağ ermənilərinə mesaj

Müsahibədə Qarabağda yaşayan ermənilər üçün də çox ciddi mesajlar səsləndirildi. Vacib məqamlardan biri Qarabağda yaşayan ermənilərlə bağlı oldu. Dövlət başçısı bir daha bəyan etdi ki, Qarabağda yaşayan ermənilərin nə statusu olacaq, nə də müstəqilliyi. Ümumiyyətlə, ermənilərin hansısa xüsusi imtiyazı olmayacaq. Yəni Azərbaycan vətəndaşları necə, onlar da elə. Azərbaycan vətəndaşlarının hüquqları necə qorunursa, onların da elə. Onlar ölkəmizdə digər etnik qruplar kimi yaşayacaqlar, ermənilərə heç bir əlavə hüquq verilməyəcək. Son vaxtlar bəzi dövlətlər ermənilərə hansısa statusun verilməsi məsələsini gündəmə gətirirlər. Onlar başa düşməlidirlər ki, bunlar sadəcə illüziyadır. Belə bir addım heç bir halda qəbul edilə bilməz.

Azərbaycan kimsədən soruşmadan öz torpaqlarında istənilən addımı ata bilər. Prezident bir daha qeyd etdi ki, biz öz torpağımızda istənilən zaman istənilən əməliyyat apara bilərik. Dövlət başçısı bununla bir daha antiterror əməliyyatlarının miqyasının genişlənə və hər an yenidən başlaya biləcəyi mesajını da vermiş oldu. Artıq beynəlxalq dairələr Azərbaycanın dövlət maraqlarını nəzərə alırlar və bizimlə hesablaşırlar. Ermənistan, o cümlədən Qarabağdakı ermənilər də yeni reallığı qəbul etməlidirlər. Həm Ermənistan iqtidarı, həm də müxalifəti artıq yeni mərhələnin başlandığını anlamalıdırlar. Beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan Ermənistan baş verənlərdən ciddi nəticə çıxarmalıdır.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# V İslam Həmrəyliyi Oyunları



# Azərbaycan atıcıları İslam Oyunlarının qalibidir

Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında yarışan Azərbaycan komandası növbəti qızıl medalı stend atıcılığı növündə qazanıb. Gənclər və İdman Nazirliyinin saytında xəbər verilir ki, stend atıcılığı üzrə skit qarışıq komanda yarışında Fuad Qurbanov və Nurlana Cəfərova cütlüyü V İslam Həmrəyliyi Oyunlarının qalibi olub.

Qeyd edək ki, daha əvvəl Nurlana Cəfərova skit reytinq yarışlarında İslamiadanın gümüş medalına layiq görülüb.





# Cüdoçumuz Elmar Qasımov "gümüşə" layiq görülüb

Dünən məşhur cüdoçumuz Elmar Qasımov (100 kq) İslamiadada gümüş medal qazanıb.



O, həlledici mərhələdə Özbəkistan təmsilçisi Muzaffarbek Turoboyevə uduzaraq ikinci yerlə kifayətlənib.

Bundan əvvəl isə Elmar türkiyəli Mert Sismanlara qarşı çox gərgin mübarizədən qalib ayrılaraq final görüşünə vəsiqə əldə etmişdi.

"Bu, tək mən yox, başqaları üçün də narahat rəqibdir. Güləşə bilmədim. Fənd tətbiq edirdi, saxlaya bilmirdim". Bunu V İslam Həmrəyliyi Oyunlarında gümüş medal qazanan Azərbaycan cüdoçusu Elmar Qasımov jurnalistlərə açıqlamasında deyib.

100 kq çəki dərəcəsində fəxri kürsünün 2-ci pilləsinə qalxan idmançı tam formada olmadığını və təcrübəsi hesabına güləşdiyini bildirib: "Məşq edib, qarşıdakı yarışlaradək daha yaxşı formada olacağam. Sevindirici haldır ki, finala kimi irəlilədim. Əslində ciddi problemim yoxdur. Sadəcə, qabırğam əzilmişdi. Ona görə yaxşı məşq edə bilməmişdim. Amma sonuncu Avropa çempionatında güclü rəqibləri udub, 3-cü yeri tutmuşdum".

## İslamiadada qələbə estafeti davam edir: Azərbaycanın 76 medalı

### V İslam Həmrəyliyi Oyunlarında idmançılarımız daha 8 medala sahibləndilər



Türkiyənin Konya şəhərində təşkil olunan V İslam Həmrəyliyi Oyunları finişə yaxınlaşır. Azərbaycan təmsilçiləri İslamiadada 24 idman növündən 22-sində iştirak edirlər.

56 ölkəni təmsil edən 4200 idmançı 483 dəst medal uğrunda mübarizə aparır.

Dünən yarışların 12-ci günündə Azərbaycan atletləri daha bir neçə idman növündə güclərini sınayıblar. Belə ki, idmançılarımız futbol, basketbol, oxatma, stend atıcılığı, üzgüçülük, kikboksinq və cüdo üzrə yarışlarda iştirak ediblər.

Son məlumata görə, V İslam Həmrəyliyi Oyunlarının ötən yarış günlərində, o cümlədən dünənki nəticələr də qeydə alınmaqla, Azərbaycan komandası aktivinə 76 medal yazdırıb. Onlardan 22-si qızıl, 28-si gümüş, 26-sı bürünc medallardır.

Bu nəticə ilə Azərbaycan ümumi komanda hesabında 56 ölkə arasında 4-cü pillədədir.

İlk üçlükdə isə Türkiyə , Özbəkistan və İran qərarlaşıblar.

## Azərbaycanın iki kikboksçusu finala çıxıb, dördü medala sahiblənib

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan kikboksçuları yarışlara uğurla başlayıblar.



Azərbaycan Kikboksinq Federasiyasından verilən məlumata görə, ölkəmizin 2 idmançısı - Rəhim Əliyev (low kick, 71 kq) və Bəhram Rəcəbzadə (low kick, +91 kq) finala çıxıblar. Həlledici görüşlər bu gün keçiriləcək.

Həmçinin bildirilir ki, daha dörd kikboksçumuz - Elxan Əliyev (full contact, 71 kq), Qəşəm Məmmədov (low kick, 67 kq), Arzuman Qədimov (low kick, 63,5 kq) və Aysu Devrişova (56 kq) bürünc medal qazanıblar.

Qeyd edək ki, İslamiadada kikboksinq yarışları son günədək - avqustun 18-dək davam edəcək.

## Qadın basketbolçularımız yarımfinalda



Qadınlardan ibarət 3x3 basketbol növü üzrə Azərbaycan milli komandası Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında 1/4 final oyununa çıxıb.

Yığma komandamız yarımfinala gedən yolda Qətər millisi ilə qarşılaşıb. Matça sürətli start verən Azərbaycan tempi sonadək qoruyaraq yekunda 21: 2 hesablı asan qələbə qazanıb.

Qeyd edək ki, millimizin yarımfinaldakı rəqibi Özbəkistan komandası olacaq.

Bu gün keçiriləcək görüşə Bakı vaxtı ilə saat 18.45-də start veriləcək.

# Futbol üzrə Azərbaycan millisi "bürünclə" mükafatlandırılıb

23 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandası Konyada təşkil olunan V İslam Həmrəyliyi Oyunlarında üçüncü olub. Konyadakı Cümhuriyyet stadionunda keçirilən qarşılaşmada seçməmiz Əlcəzair yığması ilə qarşılaşıb və matçda hesab açılmayıb. Qalibi müəyyənləşdirmək üçün penaltilər seriyasına ehtiyac duyulub. 11 metrlik zərbələri daha dəqiq yerinə yetirən Azərbaycan millisi qələbə qazanıb - 4:3 və bürünc medallara layiq görülüb.

"Bilirsiniz ki, klublarımız həm Çempionlar Liqası, həm də Konfrans Liqasında oynadığı üçün buraya istədiyimiz heyəti gətirə bilmədik. Üstəlik, Premyer Liqa başlayırdı. Ona görə daha gənc heyətlə gəldik". Bunu 21 yaşadək futbolçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Samir Əliyev V İslam Həmrəyliyi Oyunlarında Əlcəzair millisinə penaltilər seriyasında qalib gələrək, bürünc medal qazandıqları oyundan sonra jurnalistlərə açıqlamasında deyib.

43 yaşlı mütəxəssis əvvəlcə qrupdan çıxacaqlarını gözləmədiklərini bildirib: "Amma uşaqlar əllərindən gələni etdilər. Yarımfinala adladıq. Artıq iştah yarandı ki, finalda oynayaq. Təəssüf ki, alınmadı. 3-cü yer uğrunda gərgin mübarizə getdi. Penaltilər seriyasında qələbə qazanıb, 3-cü yeri tutduq".

Əliyevin sözlərinə görə, oyunun gedişatı əsas vaxtın qolsuz başa çatacağını göstərirdi: "Sona 2-3 dəqiqə qalmış 11 metrlik cərimə zərbələrini kimlərin vuracağını müəyyənləşdirirdik".



Baş məşqçi "Qarabağ"ın yarımmüdafiəçisi İsmayıl İbrahimlinin qarşılaşmada meydana çıxmamasının səbəbini açıqlayıb: "Təəssüf ki, matça 2-3 saat qalmış özünü narahat hiss etdi. Bu səbəbdən riskə getmədik. Onun əvəzinə meydana çıxan futbolçu əlindən gələni etdi".

O, İslamiadanın elə də nüfuzlu yarış olmaması ilə bağlı fikirlərlə razılaşmadığını söyləyib: "Ola bilər, digər idman növlərində belə deyil. Amma futbolda hamısı güclü rəqiblər idi. Türkiyə, Səudiyyə Ərəbistanı, Əlcəzair buraya güclü heyətlə gəlmişdi. Bizdəki oyunçuların əksəriyyəti isə növbəti seçmə mərhələdə U-21-i təmsil edəcək. İslamiada bizim üçün böyük təcrübə oldu. 4 oyunun gələcəkdə nəticə qazanmaq baxımından yığmaya xeyiri dəyəcək".

Bürünc medallar uğrunda oyunu Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, AFFA-nın vitse-prezidenti Vaqif Sadıqov, veteran futbolçu İsgəndər Cavadov və Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirov da izləyiblər.

Son məlumata görə, AFFA prezidenti Rövnəq Abdullayev Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanan 23 yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının üzvlərini təbrik edib.

Milli assosiasiyanın rəsmi saytı xəbər verir ki, R.Abdullayev telefonla zəng edərək öz təbriklərini kollektivə çatdırıb.

Final oyununda Səudiyyə Ərəbistanı millisinə 1:0 hesabı ilə qalib gələn Türkiyə yığması qızıl medallara layiq görülüb.

***Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"***

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ümumtəhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.08.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.08.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir);*
- *icraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2022-ci il tarixinədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 20.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 28.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2022-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi məktəbəqədər təhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir ( 01.08.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.08.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin Əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir);*
- *icraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2022-ci il tarixinədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 20.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 28.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Dünya əhalisinin sayı 8 milyardı ötüb

## Bir müddətdən sonra planetin sakinləri azalmağa başlayacaq

Son hesablamalara əsasən Yer planetinin əhalisi 8,009 milyard nəfərdir. Bu məlumatı real vaxt rejimində hesablama aparan "Countrymeters" statistik xidməti təqdim edib. Hesabatda qeyd olunduğu kimi, dünyada kişilər qadınlara nisbətən üstünlük təşkil edir - 50,5 faizə qarşı 49,5 faiz.



Ən çox əhalisi olan ilk beş ölkə bunlardır: Çin - 1,456 milyard, Hindistan - 1,418 milyard, ABŞ - 336 milyon, İndoneziya - 281 milyon, Pakistan - 230 milyon.

Xatırladaq ki, BMT-nin məlumatına görə, dünya əhalisinin sayının 2022-ci il noyabrın 15-də səkkiz milyard nəfərə çatacağı proqnozlaşdırılmışdı.

Ekspertlər bildirirlər ki, dünya əhalisinin 9,7-10 milyard nəfərlik pik həddi 2050-ci illərin sonunda və ya 2070-ci ildə gözlənilir. Bundan sonra planetin əhalisi azalmağa başlayacaq. Bu isə ölkələrin azalması və əhalinin qocalması ilə əlaqədar olacaq.

"The Wall Street Journal" qəzeti yazır ki, dünya əhalisi heç vaxt 10 milyarda, hətta 9 milyarda çata bilməz və gələcəyin əsas demoqrafik problemləri insanların həddindən artıq çoxluğu ilə deyil, əhalinin qocalması və azalan işçi qüvvəsi ilə bağlı olacaq.

Məqalədə deyilir: "Dünyada doğum səviyyəsi o qədər sürətlə aşağı düşür ki, biz potensial olaraq insan populyasiyasının pik həddinə bir nəsildən az müddətdə çata bilərik".

Bu arada, Oksforddakı Qida Standartları Agentliyinin alimləri ətraf mühitə mənfi təsir göstərən məhsulların adlarını açıqlamışlar. Britaniyanın "Daily Mail" qəzeti yazır ki, onlar istixana qazı emissiyalarını, torpaqdan istifadəni və su qıtlığı problemlərini öyrəniblər. Tədqiqatçılar hesab edirlər ki, ətraf mühit üçün zərərli məhsullar bunlardır: ət, qoz-fındıq və quru meyvələr, qəhvə, pendir, balıq və dəniz məhsulları, çay, piroqlar, ziyafət xörəkləri, cemlər, mürəbbələr, şokolad və hazır yeməklər.

Bundan əlavə, qeyd olunur ki, bu məhsullar supermarketlərdə əhali tərəfindən alınan ərzağın əksəriyyətini təşkil edir.

Atmosferə ən az təsir edən məhsulların siyahısına isə bunlar daxildir: likörlar, qızardılmış kartof, soğan halqaları, düyü, şirələr, zeytun, turşular, idman və enerji içkiləri, qazlı içkilər, o cümlədən kola, çipslər və düyü .

Tədqiqatçılar həmçinin meyvə, tərəvəz, şəkər və un ilə hazırlanan şorbalar, salatlar, çörək və dənli bitkilərdən düzəldilən səhər yeməklərinin təsir göstəricilərinin aşağı olduğunu, ət, balıq və pendirlə hazırlanan qidaların isə ən yüksək nəticə göstərdiyini müəyyən ediblər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# "Artilleriya atəşinin ustaları" müsabiqəsində gecə atışları icra edilib

"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Qazaxıstanın Otar şəhərində keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin növbəti mərhələsində tapşırıqlar icra edilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan, Qazaxıstan, Belarus, Ermənistan, Qırğızıstan, Rusiya, Tacikistan, Venesuela və Zimbabve komandalarının iştirak etdiyi müsabiqənin növbəti mərhələsində tapşırıqlar gecə vaxtı yerinə yetirilib. Bu mərhələdə komandalar zirehli döyüş maşınlarında gecəgörmə cihazlarından istifadə etməklə marşrut üzrə müxtəlif maneələri dəf edib, həmçinin işıqlandırılan hədəflərə minaatanlar, qumbaraatanlar və avtomatlardan atəş açıblar.

Artilleriyaçılarımız bu mərhələdə də bütün hədəfləri sərrast atəşlə məhv ediblər.

Mərhələnin nəticələrinə görə Qazaxıstan birinci, Azərbaycan ikinci, Rusiya artilleriyaçıları isə üçüncü yerdə qərarlaşıblar.


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


**Asəf Yolçu oğlu Nəbiyevə məxsus ABA 1549, ABA 1554, ABA 1557, ABA 1558, ABA 1556, ABA 1555, ABA1559, ABA 1553, ABA 1552, ABA 1551 və ABA 1550 11 ədəd bort nömrəli kiçikhəcmli gəmilərə verilmiş sənədlər itdiyi üçün etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi Eldar Sultanova əzizi

**MƏCİD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhər 4 saylı Vəkil Bürosunun kollektivi Bakı şəhər 33 saylı Vəkil Bürosunun müdiri Elxan Süleymanlıya anası

**RƏFİQƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6332**
**Sifariş 2278**
**Qiymıəti 40 qəpik**